HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 38 (678) ■ 2 oktyabr 2013 | www.vergiler.az | Qiyməti: 40 qəp.

# Bu gün korrupsiyaya qarşı mübarizə prioritet məsələdir

*Sentyabrın 30-da Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin yeni inzibati binasının açılışı olmuşdur. Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir. Prezident İlham Əliyevə məlumat verilmişdir ki, 5 və 7 mərtəbəli iki korpusdan, habelə üçmərtəbəli yardımçı bina və yeraltı qarajdan ibarət olan Korrupsiyaya qarşı Mübarizə İdarəsinin yeni inzibati binasının inşasına 2010-cu ilin avqustunda başlanmış və tikinti işləri uğurla başa çatdırılmışdır. Bununla yanaşı, ərazidəki digər binalarda yenidənqurma işləri aparılmış, ətrafda yaşayan insanların istirahətinin təşkili məqsədi ilə yeni park salınmış, yaşıllıq zolaqları genişləndirilmiş, fəvvarələr quraşdırılmışdır.*



Korrupsiyaya qarşı Mübarizə İdarəsinin yeni inzibati binasının açılışı olmuşdur

Birinci mərtəbədə müasir Azərbaycanı tərənnüm edən, paytaxtımızın rəmzinə çevrilən memarlıq nümunələrinin əks olunduğu böyük mozaik pannolar vardır. Burada xalqımızın ümummilli lideri Heydər Əliyevin büstü qoyulmuş, korrupsiyaya qarşı mübarizə sahəsində qəbul edilmiş normativ-hüquqi aktlar, bu sahədə ölkəmizin qoşulduğu beynəlxalq konvensiyalar, prokurorluğun inkişafını əks etdirən sənədlərdən ibarət guşələr yaradılmışdır.

Dövlətimizin başçısına məlumat verilmişdir ki, ölkəmizdə gedən inkişaf prosesləri məhkəmə-hüquq islahatlarının dərinləşməsinə, hüquq-mühafizə, o cümlədən prokurorluq orqanlarının infrastrukturunun yaxşılaşdırılmasına, müasir binaların inşasına təkan vermişdir. Bu sırada paytaxtın Yasamal və Sabunçu rayon, İsmayıllı, Göygöl, Qusar, Biləsuvar, Gədəbəy, Zərdab və Samux rayon, həmçinin Zaqatala hərbi prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, çoxsaylı rayon prokurorluqlarının binaları əsaslı təmir olunmuşdur. Bildirilmişdir ki, eyni zamanda 100 və 250 nəfərlik konfrans zalları müxtəlif treninqlərin, seminarların və beynəlxalq tədbirlərin, mətbuat konfranslarının, vətəndaş cəmiyyəti institutları, o cümlədən qeyri-hökumət təşkilatları ilə görüşlərin, «dəyirmi masa»ların, maarifləndirici tədbirlərin, təqdimatların keçirilməsi üçün nəzərdə tutulmuşdur. Müasir hüquq ədəbiyyatı, müxtəlif metodiki tövsiyələr, normativ-hüquqi aktlarla zənginləşdirilmiş kitabxananın digər dövlət qurumlarının elektron kitabxanalarına çıxışı təmin edilmişdir. Burada əməliyyatların idarə edilməsi mərkəzi də yaradılmışdır. Mərkəzdə Korrupsiyaya qarşı Mübarizə İdarəsi tərəfindən hazırlanaraq həyata keçirilən əməliyyat tədbirlərinin birbaşa rejimdə idarə edilməsi mümkündür.

Dövlətimizin başçısı «Qaynar xətt» əlaqə mərkəzi və onun fəaliyyəti ilə tanış olmuşdur. Korrupsiya hüquqpozmaları barədə müraciətlərin təxirə salınmadan çatdırılması və operativ baxılmasının təmin edilməsi məqsədi ilə yaradılan «161» nömrəli «Qaynar xətt» əlaqə mərkəzinin fəaliyyəti təkmilləşdirilmişdir. Daxil olan zənglərin görmə funksiyasını əks etdirən monitorlar vasitəsilə qəbulu yeni proqram təminatı ilə həyata keçirilir və bu da korrupsiyaya daha çox məruz qalan sahələrin müəyyən edilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi üçün təhlillər aparmağa imkan yaradır.

Prezident İlham Əliyev daha sonra korrupsiya cinayətlərinin qarşısının alınması və aşkarlanması istiqamətində əməliyyat-axtarış fəaliyyətinin uğurla həyata keçirilməsi məqsədi ilə elmi-texniki tərəqqinin ən müasir nailiyyətlərini özündə birləşdirən zəruri avadanlıqlar, müasir texniki vasitələrlə təchiz edilmiş otaqlarla tanış olmuşdur.

Sonra dövlətimizin başçısı Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin kollektivi ilə görüşmüş, onlara korrupsiyaya qarşı mübarizədə bundan sonra da qətiyyətli və prinsipial olmağı tapşırmışdır.

# Prezident İlham Əliyev: “Bu ilin 8 ayında qeyri-neft sektoru 10,3 faiz artmışdır”

## Bu, dünya miqyasında ən yüksək göstəricidir



Sentyabrın 28-də Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi çərçivəsində Şabran rayonu ərazisində inşa edilən Taxtakörpü su anbarı, 25 meqavatlıq Taxtakörpü Su-Elektrik Stansiyası və Taxtakörpü-Ceyranbatan su kanalının açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak etmişlər. Dövlətimizin başçısına bildirilmişdir ki, su anbarı və su-elektrik stansiyası Dövlət Neft Fondundan ayrılan vəsait hesabına tikilmişdir. Taxtakörpü su anbarının sahəsi 8,71 kvadratkilometrdir. Bu qurğunun ümumi su tutumu isə 270 milyon kubmetrdir. Gölün faydalı su həcmi 238,4 milyon kubmetrdir. Gil nüvəli torpaq bənd olan bu hidrotexniki qurğunun dibdən eni 754, hündürlüyü 142,5 metrdir. Bu, nəinki regionda, o cümlədən Avropada ən hündür torpaq bəndlərdən biridir.

Prezident İlham Əliyevə Taxtakörpü Su-Elektrik Stansiyası barədə məlumat verilmiş, bildirilmişdir ki, ən müasir standartlara cavab verən su-elektrik stansiyasında ümumi gücü 25 meqavat olan üç hidroaqreqat quraşdırılmışdır. Stansiyada sərfiyyata nəzarət hovuzu yaradılmışdır. Buraya su xüsusi ötürücü vasitəsilə verilir. Hovuzdakı dörd qapıdan üçü elektrik enerjisinin alınması məqsədi ilə suyun turbinlərə verilməsinə xidmət edir. Həmin hovuzdan dəryaçaya sutullayıcı inşa edilmişdir. Taxtakörpü-Ceyranbatan kanalında gələcəkdə təmir aparılmasına ehtiyac olarsa və ya digər zəruri hallar yaranarsa, hovuzdakı normadan artıq su sutullayıcı vasitəsilə dəryaçaya yönəldiləcəkdir. Su-elektrik stansiyası və açıq paylayıcı qurğu əsasən Almaniya, Çexiya və digər xarici ölkələrdən gətirilən avadanlıq quraşdırılmışdır. Stansiyanın generasiya zalının sahəsi 923 kvadratmetrdir. Dispetçer otağında son elmi-texniki yeniliklərə əsaslanan avadanlıq quraşdırılmışdır. Stansiyanın daxili sərfiyyatı xüsusi otaqdan qidalanacaqdır. Qapalı paylayıcı qurğu, qəza dizel generatoru, digər qurğu və avadanlıq da inkişaf etmiş ölkələrin energetika obyektlərindəki standartlara uyğundur. 110 kilovoltluq açıq paylayıcı qurğu da mükəmməlliyi ilə seçilir. Burada Almaniyanın «Siemens» şirkətinin avadanlığı quraşdırılmışdır. Üç transformator, ifrat gərginlik boşaldıcısı, gərginlik və cərəyan transformatorları, eleqaz açarları, şin ayırıcıları, 110 kilovoltluq şinlərarası eleqaz açarı ən müasir avadanlıqdır. Açıq paylayıcı qurğudan elektrik enerjisi 110 kilovoltluq hava xətləri vasitəsilə 110 kilovoltluq 1-ci Xaçmaz hava xəttinə və 110 kilovoltluq 4-cü Siyəzən hava xəttinə ötürülür.

Qeyd olunmuşdur ki, Taxtakörpü Su-Elektrik Stansiyası şimal bölgəsi rayonlarının elektrik enerjisi ilə təchizatında mühüm rol oynayacaqdır. Sonra Abşeron, Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran və Xızı rayonları ictimaiyyətinin nümayəndələri və bu bölgəni təmsil edən sahibkarlarla görüşən Prezident İlham Əliyev mərasimdə nitq söyləmişdir. Bildirmişdir ki, Azərbaycanda çox böyük infrastruktur layihələri icra edilir. Su-meliorasiya sistemində mühüm layihələrdən olan Taxtakörpü su anbarının istifadəyə verilməsi və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması bu layihələr sırasında mühüm yer tutur. Taxtakörpü su anbarının əhəmiyyətindən danışan dövlət başçısı bildirmişdir ki, yeni su anbarı su tutumuna görə Ceyranbatan gölündən iki dəfə böyükdür. Bu, Azərbaycanın böyük su anbarıdır. Burada 270 milyon kubmetr su yığılır ki, bu sudan Azərbaycan vətəndaşları və sahibkarlar istifadə edəcəklər. Eyni zamanda, Taxtakörpü Su-Elektrik Stansiyasının enerji sektorunda çox mühüm rolunun olduğunu bildirən Prezident İlham Əliyev ölkəmizin enerji təhlükəsizliyindən də bəhs etmişdir: «Azərbaycan öz enerji təhlükəsizliyini tam şəkildə təmin etmişdir və bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynayır, biz alternativ enerji mənbələrinin yaradılması ilə bağlı çalışırıq və su-elektrik stansiyalarının tikintisi bu istiqamətdə çox vacib addımlardır. Keçən dövrdə bir neçə su-elektrik stansiyası tikilmişdir - Füzulidə 25 meqavat gücündə, Ordubadda Biləv elektrik stansiyası, təxminən o da o həcmdədir, Arpaçay Su-Elektrik Stansiyasının yenidən qurulması, demək olar ki, başa çatmışdır. Taxtakörpü Su-Elektrik Stansiyasının tikintisi də böyük su-elektrik stansiyaları arasında, əlbəttə ki, önəmli bir addımdır. Eyni zamanda, kiçik çaylarda 1 meqavat, 4 meqavat, 5 meqavat gücündə su-elektrik stansiyaları tikilir. Hazırda Şəmkirçay su anbarında, - Taxtakörpüdən sonra ikinci böyük su anbarı olacaqdır, - orada da 25 meqavat gücündə su-elektrik stansiyası tikilir».

Azərbaycan Prezidenti yeni istifadəyə verilən su anbarının aqrar sektorun inkişafına töhfə verəcəyini bildirmişdir: «Taxtakörpü su anbarının və Vəlvələçay-Taxtakörpü, Taxtakörpü-Ceyranbatan su kanallarının fəaliyyətə başlaması nəticəsində 150 min hektar torpaqda suvarma yaxşılaşdırılacaq, 30 min hektar isə yenidən əkin üçün yararlı olacaqdır. Bu torpaqların böyük hissəsi, təqribən 11 min hektarı Şabran rayonunun ərazisinə düşür. Yəni kənd təsərrüfatının inkişafı üçün çox gözəl imkanlar yaradılır. Şəmkirçay su anbarının tikintisi də paralel olaraq davam etdirilir və ümid edirəm ki, bu nəhəng layihə gələn ilin sonuna qədər icra ediləcəkdir. Şəmkirçay su anbarının fəaliyyəti nəticəsində 75 min hektar torpaq sahəsində suvarma təmin ediləcəkdir».

Dövlətimizin başçısı su-meliorasiya sistemlərinin yenidən qurulması sayəsində ölkəmizin ərzaq təhlükəsizliyinin daha da möhkəmlənəcəyini bildirmiş, kənd təsərrüfatının, qeyri-neft sektorunun inkişafı üçün digər layihələrin də icra ediləcəyini xatırlatmışdır: «Kənd təsərrüfatının inkişafı böyük dərəcədə infrastruktur layihələrindən asılıdır və əlbəttə ki, Azərbaycan gələcək illərdə ərzaq məhsullarına olan tələbatı tam şəkildə özü təmin edəcəkdir. Biz artıq buna yaxınlaşmışıq. Bu da tarixi nailiyyət olacaqdır və ondan sonra biz daha çox ixrac haqqında düşünməliyik. Artıq biz düşünürük, yeni bazarlara çıxmaq üçün addımlar atılır və beləliklə, kənd təsərrüfatı Azərbaycanda sürətlə inkişaf edəcəkdir. Taxtakörpü su anbarının yaradılması, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması özəl sektora yeni təkan verəcəkdir. Özəl sektor Azərbaycan iqtisadiyyatında təxminən 85 faiz təşkil edir. Bu da onu göstərir ki, bazar iqtisadiyyatı prinsipləri Azərbaycanda tam şəkildə tətbiq olunubdur. Bu ilin 8 ayında qeyri-neft sektorumuz 10,3 faiz artmışdır. Bu da dünya miqyasında ən yüksək göstəricidir. Əminəm ki, biz bu yüksək templəri saxlayacağıq və «Azərbaycan-2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının bütün müddəalarını təmin edəcəyik».

2 Vergilər naziri Bərdə şəhərində vətəndaşları qəbul etmişdir

3 «E-xidmət»lərin kəmiyyət və keyfiyyətinin genişləndirilməsi başlıca məqsədlərdəndir

4 «ASAN xidmət» yeni xidmətlər təqdim etməyə hazırlaşır»

5 Azərbaycan MDB-də avtomatlaşdırılmış pensiya sisteminə keçmiş ilk ölkədir

# Vergilər naziri Fazil Məmmədov Bərdə şəhərində vətəndaşları qəbul etmişdir

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə köməklik göstərirlər.*



Növbəti belə qəbul Bərdə şəhərinin vergi ödəyicilərinə xidmət mərkəzində Yevlax, Tərtər, Ağcabədi, Beyləqan, İmişli, Bərdə, Zərdab, Füzuli, Laçın, Ağdam, Xocalı və Xocavənd rayonlarından olan vətəndaşlarla keçirilmişdir. 50-dən çox vətəndaş vergi orqanlarına işə qəbul, POS-terminalların quraşdırılması, nəzarət kassa aparatlarının tətbiqi ilə bağlı, vergi borcları, o cümlədən vergi inzibatçılığı sahəsində rastlaşdıqları çətinliklər və problemlər, həmçinin vergi dərəcələrinin azaldılmasına yönəli təkliflər, kiçik sahibkarlığa güzəştli kreditlərin verilməsi və onları narahat edən digər məsələlərlə bağlı vergilər nazirinə müraciət etmişdir.

Qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunmuş, vətəndaşlar tərəfindən verilən müxtəlif təkliflər qeydə alınmış, digər məsələlərin isə araşdırılması və lazımi tədbirlər görülməsi barədə müvafiq tapşırıqlar verilmişdir. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razı qaldıqlarını bildirmişlər.

**Azərbaycanın vergi sistemi: 2003-2013**

# İnsan resurslarının inkişafı əsas hədəflərdəndir

*Vergilər Nazirliyində 2004-cü ildə qəbul edilmiş insan resurslarının inkişafı strategiyasında bu sahədə inkişaf sisteminin əsas komponentləri kimi aşağıdakılar əsas götürülmüşdür: təbliğat, treninq, qiymətləndirmə, həvəsləndirmə və müvafiq informasiya bazası.*

Nazirliyin mühüm strukturlarından olan Tədris Mərkəzinin 2003-2013-cü illərdəki fəaliyyəti də məhz bu məqsədlərin reallaşdırılmasına yönəlmişdir. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli «Dövlət vergi orqanlarında xidmət haqqında» Əsasnamənin təsdiq edilməsi barədə Qanunun tətbiq edilməsi haqqında» fərmanının icrası ilə əlaqədar Nazirlər Kabinetinin 5 iyun 2002-ci il tarixli qərarı ilə Vergilər Nazirliyinin Tədris Mərkəzi yaradılmış, onun Əsasnaməsi və strukturu təsdiq edilmişdir.

Nazirliyin kadrlarının bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi istiqamətində işlər ixtisasartırma və yenidən hazırlama tədris müəssisəsi statuslu elm və təhsil ocağı olan Tədris Mərkəzində həyata keçirilir. Ötən illərdə Tədris Mərkəzi dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının təkmilləşdirilməsini və ixtisaslarının artırılmasını, habelə vergi siyasətinə dair elmi tədqiqatların aparılmasını təmin etmişdir.

***Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli «Dövlət vergi orqanlarında xidmət haqqında» Əsasnamənin təsdiq edilməsi barədə Qanunun tətbiq edilməsi haqqında» fərmanının icrası ilə əlaqədar Nazirlər Kabinetinin 5 iyun 2002-ci il tarixli qərarı ilə Vergilər Nazirliyinin Tədris Mərkəzi yaradılmış, onun Əsasnaməsi və strukturu təsdiq edilmişdir.***

2011-ci ilin sentyabr ayının 13-də Prezident İlham Əliyevin iştirakı ilə Şamaxı rayonunda Vergilər Nazirliyinin Tədris Mərkəzinin yeni binasının açılış mərasimi keçirilmişdir. Mərasimdə çıxış edən Prezident İlham Əliyev demişdir: «Mən çox şadam ki, qısa müddət ərzində Vergilər Nazirliyi öz işçiləri və gənc işçilər üçün belə gözəl şərait yaradıbdır. Azərbaycanın gözəl guşəsində, Şamaxı rayonunda belə mənzərəli yerdə ən müasir standartlara cavab verən Tədris Mərkəzi tikilibdir. Bu, gözəl hadisədir və Azərbaycanın ümumi inkişafı ilə bilavasitə bağlı olan məsələdir».

Şamaxı rayonunda inşa olunmuş Tədris Mərkəzinin yeni binası memarlıq üslubuna, texniki və texnoloji cəhətdən avadanlıqlarla təchizatına, otaqlarda əlverişli iş şəraitinə və infrastrukturuna görə beynəlxalq standartlara uyğundur. Burada təlim-təhsil üçün əlverişli şərait və bu məqsədə xidmət edən infrastruktur sahələri yaradılmışdır.

Tədris Mərkəzində təlim və tədris prosesinin mükəmməl səviyyədə təşkili üçün təkmil texniki baza yaradılmışdır. Mərkəzdə üç mühazirə auditoriyası fəaliyyət göstərir. Burada hazırlıq üç səviyyədə aparılır. Birinci səviyyə 2 ay ərzində yeni işə qəbul olunanları, ikinci səviyyə 1-2 həftə ərzində vəzifəli şəxsləri, üçüncü səviyyə isə rəhbər işçilər üçün qısamüddətli treninq kurslarını əhatə edir.

Mərkəzin strukturuna iqtisadiyyat və menecment, vergi metodologiyası, vergi qanunvericiliyi və təsərrüfat hüququ kafedraları, elmi-tədqiqat bölməsi, tədris-metodika və maliyyə-təsərrüfat şöbələri daxildir. Bundan başqa, mərkəzdə müvafiq texniki təchizata malik 25 nəfərlik konfrans zalı, kompüterlərlə təmin olunmuş kitabxana, internetə qoşulmuş 15 kompüterlə təmin olunmuş oxu zalı, 96 nəfərlik akt zalı var. Akt zalında mühüm tədbirlərin, təqdimat mərasimlərinin keçirilməsi üçün hər cür şərait yaradılmışdır.

Tədris Mərkəzində dinləyicilərin vergilərin müxtəlif sahələri üzrə əvvəllər qazanılmış biliklərinin elmi, nəzəri və praktiki baxımdan təkmilləşdirilməsi təmin olunur. Təhsilin yekunlarına görə dinləyicilərin peşəkar bilikləri və işgüzar keyfiyyətləri qiymətləndirilir, onların ixtisasının artırılması sahəsində tələbatları öyrənilir. Müvafiq tədris planları işlənib hazırlanır, digər ixtisasartırma müəssisələri və elmi-tədqiqat təşkilatları ilə əməkdaşlığı həyata keçirilir.

Vergi orqanlarında insan resurslarının müasir tələblərə cavab verməsi üçün daimi tədris proqramları əsasında dinləyicilərin peşəkarlıq səviyyəsinin artırılması, insan resurslarının fəaliyyətinin obyektiv meyarlar əsasında düzgün qiymətləndirilməsi və işçilərin fəaliyyətinin nəticələrinə görə həvəsləndirilməsi, kadrlar haqqında informasiya bazasının formalaşdırılması və insan resurslarının idarə edilməsi məsələləri Tədris Mərkəzində aparılan elmi araşdırmaların əsas istiqamətlərini təşkil edir. Bu məqsədlərə nail olmaq üçün tədris prosesində xüsusi yanaşma tətbiq edilir. Buraya tədrisin planlaşdırılması, tədris tələbatlarının müəyyən edilməsi və təhlili, tədris prosesinin təşkili və perspektiv planda tədris sahəsində optimallığın təmin edilməsi daxildir.

Mərkəzdə rabitə və nəqliyyat, xidmət, təhsil və səhiyyə sahələri üzrə vergi auditinin keçirilməsi proqramları üzrə ixtisasartırma kursları tədris-mövzu planlarının, tədris proqramlarının hazırlanması və tədris materiallarının toplanması istiqamətində işlər davam etdirilir.

Son illər Mərkəzdə təşkil olunan treninq və konfranslar da mühüm əhəmiyyət kəsb edir. «Kameral vergi yoxlamalarının keçirilməsi işinin təşkili» mövzusunda treninqlərdə vergi orqanlarının bəyannamələrin yoxlanılması funksional istiqamətində fəaliyyət göstərən əməkdaşlar iştirak edirlər. Bundan başqa, son illərdə «İqtisadi sahələr üzrə kameral vergi yoxlamaları zamanı əlavə təhlillərin aparılması», «Fiziki şəxslərin elektron qeydiyyatının təşkili», «Vergilər, faizlər və maliyyə sanksiyaları dövlət büdcəsinə vaxtında ödənilmədikdə onların məcburi alınmasına dair Metodiki Göstərişlər»in və «Vergi ödəyiciləri tərəfindən vergi bəyannamələri vaxtında təqdim edilmədikdə onların məcburi alınmasına dair Metodiki Göstərişlər»in tətbiqinə dair treninqlər təşkil edilmişdir.

2012-ci ilin sonundan vergi orqanları əməkdaşlarının peşə hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə elmi konsepsiyalara əsaslanan bir sıra layihələr hazırlanaraq reallaşdırılmış, eləcə də fasiləsiz, sistemli, səmərəli və beynəlxalq təcrübəyə əsaslanan keyfiyyətli təhsilin, təlimin və tədrisin təmini istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Hazırda isə «İnsan resurslarının inkişafı sahəsində Vergilər Nazirliyinin Tədris Mərkəzinə dəstəyin göstərilməsi» adlı Tvinninq layihəsi ilə bağlı hazırlıq işləri aparılır.

**S.MUSTAFAYEV**

# Neftin qiymət proqnozlarına yenidən baxılıb

*Azərbaycan Dövlət Neft Fondu (ARDNF) 2014-cü il üçün büdcəsinin proqnozlaşdırılması zamanı neftin qiymətini bir barelə görə 100 ABŞ dolları məbləğində götürəcək.*

Bu barədə ARDNF-nin icraçı direktoru Şahmar Mövsümov məlumat verib və bildirib ki, Azərbaycan hökuməti neftin qiymət proqnozlarına yenidən baxıb. Xatırladaq ki, Azərbaycan hökuməti neftin bir barelinin qiymətini 90 ABŞ dollarından formalaşdırmağa hazırlaşırdı. Ancaq son qərar dünyada baş verən qlobal tendensiyalar fonunda qəbul edilmişdir. Mütəxəssislərin qənaətincə, ARDNF-nin gəlir və xərclərinin artımı da bunun daha düzgün qərar olduğunu göstərir. Belə ki, təkcə bu ilin ilk altı ayı ərzində Dövlət Neft Fondunun neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 6 milyard 488,7 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 6 milyard 482,8 milyon manat, akrhesabı ödənişlər 1,7 milyon manat, tranzit gəlirləri 3,9 milyon manat, bonus ödənişləri 0,3 milyon manat, xarici sərmayəçilər tərəfindən təhvil verilmiş aktivlərdən 0,04 milyon manat təşkil etmişdir. 2013-cü ilin yanvar-iyun ayları ərzində fondun vəsaitlərinin idarə olunmasından əldə olunan gəlirləri 237,7 milyon manat olmuşdur.

Bu ilin ilk yarısında Neft Fondundan 2013-cü il büdcəsinin icrası çərçivəsində 5 milyard 534,6 milyon manat vəsait dövlət büdcəsinə transfert edilmişdir. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və onların sosial problemlərinin həlli, məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 157,5 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına 74 milyon manat vəsait ayrılmışdır.

«Bakı-Tbilisi-Qars yeni dəmir yolu» layihəsinin maliyyələşdirilməsinə Neft Fondu 2,9 milyon manat vəsait vermişdir. «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın maliyyələşdirilməsinə isə 6,3 milyon manat vəsait yönəldilmişdir. 2013-cü ilin ilk altı ayı ərzində Neft Fondunun idarə edilməsi ilə bağlı xərcləri 15,9 milyon manat təşkil etmişdir.

Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı fondun büdcədənkənar xərci 521,6 milyon manat olmuşdur. 2013-cü il 1 iyul tarixinə fondun aktivləri 2013-cü ilin əvvəlinə (34 milyard 129,4 milyon ABŞ dolları) nisbətən 1,6% artaraq 34 milyard 678,4 milyon ABŞ dollarına çatmışdır.

2012-ci ildən etibarən Neft Fondu qızılın alınmasına başlamışdır və 1 iyul 2013-cü il tarixinə fond tərəfindən alınmış qızılın miqdarı 22 ton 399 kq (720146 troya unsiyası) təşkil etmişdir.

Yeri gəlmişkən, Dünya Bankının (DB) yeni dərc olunmuş son hesabatında cari ildə «Brent», «Dubai» və WTI markalı neftin bir barelinin orta nominal qiymətinin 105 dollar, 2014-cü ildə isə 104 dollar təşkil edəcəyi proqnozlaşdırılıb. Bankın bundan əvvəlki hesabatında 2013-cü ildə bir barel neftin qiyməti 102 dollar qeyd olunmuşdu. Ötən il üçün isə bankın proqnozu 105 dollar səviyyəsində idi.

DB-nin yeni hesabatında bildirilir ki, neft qiyməti üzrə proqnoz göstəricisinin yenidən artırılması mümkündür. Çünki Yaxın Şərqdəki münaqişə neft istehsalçıları olan ölkələrə doğru genişlənir və neftin Hörmüz boğazından nəql edilməsi məsələsində problemlər yaranacağı gözlənilir.

DB mütəxəssisləri hesab edirlər ki, 2013-cü ilin ikinci rübündə neftin qiymətinin bir barel üçün 100 dollardan az olmasına dünyadakı geosiyasi vəziyyətin birbaşa təsiri olub.

**R.SADIQOV**

# Nağdsız ödənişlərin genişləndirilməsi üçün qanunvericilik bazası təkmilləşdiriləcək

*Dünya təcrübəsində vergilərdən yayınmanın qarşısının alınması, şəffaflıq və hesabatlılığın vacib amili kimi nəzərdən keçirilən nağdsız ödənişlərin həcminin genişləndirilməsi üçün maarifləndirmə və təbliğat vasitələrindən əlavə inzibati metodlardan da istifadəyə geniş rast gəlinir. Bir sıra ölkələrin maliyyə və vergi qanunvericiliyində əksini tapmış bu cür məhdudlaşdırıcı tədbirlərdən biri nağdsız ödənişlər üçün müəyyən limitin müəyyənləşdirilməsidir. Burada əsas məqsəd, ilk növbədə, korporativ sektorda şəffaflığın artırılması və böyük həcmli nağd ödənişlərin bank dövriyyəsinə cəlbi yolu ilə maliyyə intizamının gücləndirilməsi, vergitutma bazasının genişləndirilməsidir.*




Azərbaycan hökuməti hələlik daha çox maarifləndirmə və stimullaşdırma vasitələrindən istifadə etməklə nağdsız dövriyyənin genişləndirilməsinə çalışır. Ölkə başçısının son illərdə imzaladığı müvafiq fərman və sərəncamları, habelə verdiyi göstərişləri əsas tutan aidiyyəti dövlət qurumları nağdsız ödəniş sisteminin inkişafına xidmət edən bir sıra mühüm qərarlar qəbul etmişlər. Vergilər Nazirliyində də nağdsız ödənişlərin inkişafına xidmət edən Tədbirlər Planı təsdiq edilmişdir. Həmin sənəddə həyata keçiriləcək tədbirlərin əhatə dairəsi müəyyən olunmuşdur və onların mərhələlərlə icrası diqqətdə saxlanılır. Bundan əlavə, nazirlik nağdsız ödənişlərin genişləndirilməsi üçün sahibkarlar arasında, ümumilikdə cəmiyyətdə maarifləndirmə və təşviqat işlərinə böyük önəm verir. Nağdsız ödənişlərin həcminin artırılmasına, nağdsız dövriyyənin genişləndirilməsinə nail olmaq üçün müəyyən stimullaşdırıcı təkliflər də hazırlanmışdır.

Mərkəzi Bankın sədrinin birinci müavini Alim Quliyevin sözlərinə görə, görülmüş işlərə yanaşı, bir sıra vacib addımların da atılması zəruridir. İlk növbədə bu sahəni tənzimləyən qanunvericilik bazasının formalaşdırılmasına böyük ehtiyac var. Artıq Mərkəzi Bank tərəfindən milli ödəniş sisteminin inkişafına dair proqram və nağdsız ödənişlərin genişləndirilməsi üzrə təkliflər paketi, elektron ödəniş xidmətləri haqqında qanun layihəsi hazırlanaraq hökumətə təqdim edilmişdir. A.Quliyevin fikrincə, bu qanun ölkədə ödəniş sistemləri, nağdsız ödənişlərin inkişafında böyük rol oynayacaq. Qanunda nağdsız ödənişlərin stimullaşdırılmasına yönəldilən müddəalar, nağd ödənişləri məhdudlaşdırıcı tədbirlər nəzərdə tutulur. Ödəniş xidmətlərini həyata keçirən qurumlar xüsusi lisenziyalaşdırılacaq ki, burada tətbiq edilən normativ tələblər və s. sahənin inkişafına dəstək verəcək. Qanunda həmçinin ölkədə elektron pulların tətbiqi məsələsi də öz əksini tapmışdır. Qeyd edək ki, sözügedən sənədlərin ilin sonuna kimi qəbul edilməsi gözlənilir.

**Rəşad SADIQOV**

# Pərakəndə əmtəə dövriyyəsinin həcmi 9,4% çoxalıb

*Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bu ilin yanvar-avqust aylarında pərakəndə əmtəə dövriyyəsinin həcmi 2012-ci ilin eyni dövrünün səviyyəsini 9,4% üstələyərək 12,2 milyard manat olub.*

Əmtəələrin 12,2%-i hüquqi, 87,8%-i fiziki şəxslərin pərakəndə ticarət subyektlərində satılıb. Hesabat dövründə bazar və yarmarkalarda əmtəə satışının həcmi 4,7 milyard manat olmaqla ümumi satışın 38,1%-ni təşkil edib. Pərakəndə ticarət dövriyyəsi üzrə real artımın 86,9%-i hüquqi və fiziki şəxslərə məxsus ticarət subyektlərinin, 13,1%-i yarmarka və bazarların fəaliyyəti sayəsində yaranıb.

Məlumatda daha sonra bildirilir ki, 2013-cü ilin yanvar-avqust aylarında pərakəndə ticarət şəbəkəsindən hər bir istehlakçı orta hesabla ayda 164 manatlıq və ya 2012-ci ilin eyni dövrü ilə müqayisədə 14,7 manat çox əmtəə alıb.

# «Elektron xidmətlər: çevik və səmərəli idarəçiliyin mütərəqqi modeli»

*Sentyabrın 26-da Beynəlxalq Mətbuat Mərkəzində «Vergilər» və «Binəqədi» qəzetlərinin təşkilatçılığı ilə «Elektron xidmətlər: çevik və səmərəli idarəçiliyin mütərəqqi modeli» mövzusunda «dəyirmi masa» keçirilmişdir. Tədbirdə Vergilər, Rabitə və İnformasiya Texnologiyaları, İqtisadi İnkişaf, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Azərbaycan Mərkəzi Bankının, Dövlət Sosial Müdafiə Fondunun, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin məsul əməkdaşları təmsil etdikləri strukturlarda elektron xidmətlərin vəziyyəti, habelə Elektron Hökumət quruculuğu istiqamətində həyata keçirilən davamlı tədbirlər barədə məlumat vermişlər.*




### Vətəndaşlara elektron xidmətlərdən istifadə vərdişləri aşılanmalıdır

*«Vergilər» qəzetinin baş redaktoru Anar Əliyev* tədbiri giriş sözü ilə açaraq demişdir ki, demokratik və açıq cəmiyyət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil Azərbaycan son illər Elektron Hökumət quruculuğu və elektron xidmətlərdən istifadə sahəsində çoxşaxəli tədbirlər həyata keçirmişdir. Son 10 ildə bu məqsədlə müvafiq qanunverici baza formalaşdırılmış, bir sıra dövlət proqramları qəbul edilmişdir. «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)» «e-hökumət»in yaradılmasına doğru ilk mühüm addım olmuşdur. Proqram çərçivəsində əksər dövlət orqanlarının internet saytları yaradılmış və *gov.az* domenində yerləşdirilmişdir. «Elektron Azərbaycan» Dövlət Proqramında nəzərdə tutulan tədbirlər informasiya cəmiyyətinə keçidi təmin etmək üçün ilkin mərhələdə görüləcək işləri əhatə etmişdir. Proqram üzrə görülmüş işlər sayəsində respublikanın rabitə və informasiya texnologiyaları bazarında azad rəqabət mühitinin yaradılması, sahəyə investisiyaların cəlb edilməsi və özəl sektorun inkişaf etdirilməsi üzrə mühüm addımlar atılmışdır.

Bildirilmişdir ki, Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli sərəncamı ilə «e-hökumət»ə keçid istiqamətində növbəti mühüm sənəd təsdiq edilmiş, «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)» «e-hökumət»ə keçid prosesini sürətləndirmişdir: «Proqramda birmənalı vurğulanır ki, informasiya cəmiyyətinin tələblərindən irəli gələn dövlət informasiya sistemlərinin inkişafına, informasiya təhlükəsizliyinin təmin edilməsinə, «e-imza» və e-sənəd» dövriyyəsinin tətbiqinə, elektron və poçt-maliyyə xidmətlərinin təşkilinə, yerli istehsalın və onun ixrac potensialının gücləndirilməsinə, ayrı-ayrı sahələr üzrə İKT-nin tətbiqinin genişləndirilməsinə, internetdən istifadə səviyyəsinin artırılmasına və İKT üzrə kadr hazırlığına diqqət yetirilməsi vacibdir. Ümumiyyətlə, beynəlxalq praktikada qəbul edilmiş normalara əsasən, «Elektron Hökumət - hər hansı bir ölkənin dövlət strukturlarının hamısı haqqında məlumatların hər bir vətəndaş üçün açıq yerləşdirilməsi deməkdir. Yəni hər bir vətəndaş istənilən dövlət qurumuna elektron formada müraciət qaydalarını mənimsəyir və bundan istifadə edir. Bununla da müxtəlif səviyyəli dövlət strukturları informasiyanın və xidmətlərin istehlakçılara bilavasitə çatdırılması üçün müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə edirlər. Yaradılan yeni imkanların əsas məqsədi xidmətlərin göstərilməsi üçün dövlət qulluqçuları və vətəndaşlar arasında olan «məsafəni» maksimum azaltmaq, bu münasibətləri sadələşdirmək, şəffaflaşdırmaqdır. Dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətinin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsi bu məqsədə çatmağın vasitələridir».

A.Əliyev demişdir ki, Elektron Hökumət dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqini genişləndirməklə işin səmərəliliyinin artırılmasına, təqdim olunan elektron xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, istifadəçilərə dövlət qurumları tərəfindən təqdim olunan elektron xidmətlərin optimallaşdırılması və yerinə yetirilmə prosedurlarının sadələşdirilməsinə imkan yaradır: «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» 23 may 2011-ci il tarixli Prezident fərmanı və digər normativ-hüquqi aktlarla fəaliyyət üçün hüquqi baza yaradılmışdır. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi bu sahədə görülən işlərin əlaqələndiricisi olaraq Elektron Hökumətin formalaşması üzrə digər dövlət orqanları ilə sıx fəaliyyət göstərmiş və müvafiq infrastrukturun yaradılmasına müvəffəq olmuşdur. Elektron imzaların istifadəsi üçün Milli Sertifikasiya Xidmətləri Mərkəzi yaradılmış, dövlət qurumlarının informasiya sistemləri arasında informasiya mübadiləsinə şərait yaradan infrastruktur qurulmuşdur. Vətəndaşların dövlət orqanları ilə birbaşa təmaslarının azaldılması üçün «bir pəncərə» prinsipi əsasında təşkil olunan və dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin cəmləşdirildiyi Elektron Hökumət Portalı *www.e-gov.az* tətbiq edilmişdir».

Qeyd olunmuşdur ki, hazırda başlıca vəzifələrdən biri də vətəndaşlara hökumət orqanlarının göstərdiyi elektron xidmətlərdən istifadə vərdişləri aşılamaq, onları bu sahədə maarifləndirməkdir. Bu sahədə KİV və QHT sektorunun fəaliyyətinin gücləndirilməsinə, vətəndaşların elektron xidmətlər barədə geniş məlumatlandırılmasına ehtiyac var və «dəyirmi masa» da məhz həmin məqsədlə təşkil olunmuşdur.

### «ASAN İmza» elektron xidmətlərdən istifadə imkanlarını genişləndirəcək

*Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi Samirə Musayeva* bildirmişdir ki, səmərəli və çevik idarəetmə mexanizmlərinin tətbiqində maraqlı olan vergi xidməti orqanlarının fəaliyyətində elektron xidmətlər xüsusi yer tutur. Vergilər Nazirliyi internet üzərindən elektron xidmətlərin tətbiqinə ilk olaraq başlamış dövlət qurumlarından biri kimi ötən illərdə bir sıra mühüm nəticələr əldə etmişdir. «E-hökumət» layihəsi çərçivəsində davamlı şəkildə reallaşdırılan bu xidmətlər bir tərəfdən nazirliyin fəaliyyətinin çevikliyini, şəffaflığını, hesabatlılığını təmin etmiş, digər tərəfdən vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyəti, səmərəliliyi əhəmiyyətli dərəcədə artmışdır.



Qeyd edilmişdir ki, Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramı» çərçivəsində ilk uğurlu layihələrdən biri 2006-cı ildən Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) tətbiqi olmuşdur. 2007-ci ildən vergi bəyannamələrinin elektron formada təqdim edilməsi sisteminə keçid «e-xidmət»lər sahəsində mühüm yeniliklərdən olmuşdur. 2008-ci ildən sahibkarlıq subyektlərinin «bir pəncərə» prinsipi üzrə qeydiyyat sisteminin tətbiqi qeydiyyat prosedurlarının sadələşdirilməsi ilə yanaşı, sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyatının dinamikasına müsbət təsir etmişdir. «E-qeydiyyat»ın tətbiqi ilə biznesə başlamaq üçün tələb olunan prosedurlar 6-dan 3-dək, sənədlərin sayı isə 7-dən 2-yə qədər azaldılmışdır.

S.Musayevanın sözlərinə görə, 2011-ci ildən fərdi sahibkarların vergi orqanlarına gəlmədən real vaxt (onlayn) rejimində qeydiyyat sistemi tətbiq olunmuş, 2012-ci ildən yerli hüquqi şəxslərin dövlət qeydiyyatının elektron qaydada aparılmasına başlanılmışdır: «Dünya Bankının «Doing Business» qrupunun təhlili göstərir ki, «vergi bəyannamələrinin hazırlanması», «göndərilməsi» və «vergilərin ödənişi»nə sərf olunan vaxt «Böyük səkkizlik» ölkələrində orta hesabla 219 saat (bu, dünyada orta göstəricidən 67 saat azdır), İƏİT üzvü ölkələrində 212 saat, Azərbaycanda isə 214 saatdır».

Hüquq Baş İdarəsinin rəisi vurğulamışdır ki, 2013-cü ildə elektron və mobil imzaların tətbiqi məqsədilə Vergilər Nazirliyinin Sertifikat Xidməti Mərkəzi fəaliyyətə başlamışdır. Bu mərkəzin fəaliyyətə başlaması elektron və mobil imzaların tətbiqi ilə vergi ödəyicilərinin daha sürətli, təhlükəsiz və çevik şəkildə Vergilər Nazirliyinin elektron xidmətlərdən istifadəsinə təkan vermişdir: «Həmin mərkəzin fəaliyyətə başlaması elektron və mobil imzaların tətbiqi ilə vergi ödəyicilərinin daha sürətli, təhlükəsiz və çevik şəkildə Vergilər Nazirliyinin elektron xidmətlərdən istifadəsinə təkan vermişdir. «ASAN İmza» təkcə vergi ödəyiciləri üçün nəzərdə tutulmamışdır. Bu xidmətdən bütün vətəndaşlar, dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarında çalışan əməkdaşlar və b. istifadə edə bilər. «ASAN İmza» dövlət orqanları, banklar və s. tərəfindən göstərilən elektron xidmətlərdən vahid autentifikasiya və imzalama vasitəsi kimi istifadə etməyə imkan verir. Hazırda bu xidmətin digər dövlət orqanlarının və bankların elektron xidmətlərinə inteqrasiyası üzərində iş aparılır. Xidmətlər istismara verildikdən sonra vətəndaşlar öz bank hesablarını internet üzərindən idarə edə, kredit ala və ya özləri haqqında informasiya reyestrlərində olan məlumatlara baxa biləcəklər».

Qeyd edilmişdir ki, ASXM-in istismara verilməsi ilə İnternet Vergi İdarəsində hüquqi və fiziki şəxslərin, habelə POS-terminalların onlayn qeydiyyatı, ƏDV-nin depozit hesabı, elektron vergi hesab-fakturalarının göndərilməsi və s. əməliyyatlar üzrə elektron xidmətlərdə «ASAN İmza»nın tətbiqinə başlanmışdır. Bu xidmət yüksək təhlükəsizlik tələb edən elektron xidmətlərdən istifadə zamanı təhlükəsizliyə tam təminat yaradır: «Qısa müddət ərzində «ASAN İmza» kartı əldə edən vergi ödəyicilərinin sayı 20 min 600-ü keçmişdir. Eyni zamanda, «ASAN İmza» ilə göstərilən xidmətlərin sayı 100 mini ötmüşdür. Bu isə onu göstərir ki, vətəndaşlar daha etibarlı və təhlükəsiz elektron kartdan istifadə etməkdə maraqlıdırlar».

S.Musayeva həmçinin vurğulamışdır ki, «ASAN İmza» Azərbaycan sahibkarlarına xarici ölkələrdə biznes əməliyyatlarını rahat şəkildə həyata keçirməyə imkan yaradacaqdır: «Xarici ölkədə biznes qurmaq istəyən Azərbaycan sahibkarlarının həmin ölkəyə getməsinə ehtiyac olmayacaq. Belə ki, Avropa Birliyinin direktivlərinə cavab verməsi «ASAN İmza»nın bu məkanda tanınmasına imkan verəcəkdir. Bu zaman Azərbaycan sahibkarları xaricə getmədən biznes strukturları yaratmaq, müqavilələr imzalamaq, digər hüquqi prosedurları həyata keçirmək imkanı əldə edəcəklər. Onu da bildirək ki, «ASAN İmza» Elektron Hökumət Portalına, dövlət orqanlarına və banklara inteqrasiya olunmuşdur. Yaxın zamanda «ASAN İmza» vasitəsilə digər dövlət qurumlarının da elektron xidmətlərindən istifadə mümkün olacaqdır».

### «E-xidmət»lərin kəmiyyət və keyfiyyətinin genişləndirilməsi başlıca məqsədlərdəndir

*Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət idarəsinin rəisi Elçin Məmmədov* bildirmişdir ki, nazirlik yeni texnologiyaların tətbiqini genişləndirərək elektron xidmətlərin çeşidini artırmaqdadır: «2006-cı ildən tətbiq edilən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi ən son texnologiyalardan istifadənin nümunəsidir. Bu sistemin istifadəyə verilməsi sənəd dövriyyəsinin və məlumatların işlənməsi sürətinin dəfələrlə artmasına, operativ və çevik vergi nəzarətinin qurulmasına xidmət edir. Elektron vergi hesab-fakturalarının, «e-bəyannamə» və «onlayn kargüzarlıq» sistemlərinin və digər xidmətlərin tətbiqi isə vergi orqanı ilə vergi ödəyiciləri arasında əlaqələrin şəffaflaşmasına gətirib çıxarmışdır. Bu, vergi ödəyicisinə bəyannaməni internet vasitəsilə təqdim etmək, onun tərtibinə və düzgünlüyünə nəzarət etmək, öz şəxsi vərəqəsinə «real vaxt» rejimində baxmaq imkanları verir. Vergi ödəyiciləri bu xidmətlərdən istifadə edərək onun üstünlüklərini başa düşür, ondan daha çox yararlanırlar. Bunun nəticəsidir ki, ödəyicilər ümumi bəyannamələrin 90 faizini «e-forma»da təqdim edirlər».



Qeyd olunmuşdur ki, 2010-cu ilin mart ayından tətbiq olunan «onlayn kargüzarlıq» sistemi vergi ödəyicilərinin işini xeyli asanlaşdırmışdır. Nazirliyin internet ünvanındakı İnternet Vergi İdarəsi bölməsinə müraciət edən istifadəçilər üçün fərdi elektron qutu («e-qutu») yaradılmışdır. «E-qutu»nun tətbiqi ilə vergi ödəyicilərinə İnternet Vergi İdarəsinin «onlayn kargüzarlıq» bölməsindən istifadəçi kodu, parol və şifrəni daxil etməklə vergi sisteminə aid məlumat tipli istənilən sənədi tez bir zamanda əldə etmək imkanı yaradılmışdır.

Qeyd edilmişdir ki, «e-xidmət»lərin ən yaxşı istiqamətlərindən biri vergi ödəyicilərinin, eləcə də digər vətəndaşların suallarının canlı və onlayn rejimdə cavablandırılmasıdır. 2003-cü ildən bu məqsədlə fəaliyyət göstərən «195» Çağrı Mərkəzi vergi ödəyicilərinə və digər vətəndaşlara imkan yaradır ki, vergi orqanlarına gəlmədən vergi qanunvericiliyi və onun tətbiqi, Vergilər Nazirliyinin təqdim etdiyi elektron xidmətlər barədə operativ, düzgün məlumat alsınlar, eyni zamanda vergi qanunvericiliyinin pozulması halları barədə müraciətlərini ünvanına çatdıra bilsinlər. «Mərkəzə müraciətlərin sayı hər il artır: 2003-cü ildə 200 min müraciət olunmuşdusa, 2012-ci ildə bu göstərici 273 minə çatıb. Eyni zamanda, nazirliyin İnternet səhifəsinin istifadəçilərinin sayında da artım olub. Maksimum bir həftəyə cavab alınan bu bölməyə 2002-ci ildə 2.000 sual ünvanlanmışdısa, 2012-ci ildə sualların sayı 2.300-ə çatıb.

Vergilər Nazirliyi tərəfindən vətəndaşların nazirliyin məsul vəzifəli şəxsləri ilə birbaşa videoəlaqə yaratmasını təmin etmək məqsədilə «Vətəndaşların videoqəbulu» adlı elektron xidmət istifadəyə verilib. Xidmətdən istifadə edən şəxs videobağlantının köməyi ilə Vergilər Nazirliyinin məsul vəzifəli şəxsinə öz müraciətini ünvanlayıb 30 dəqiqə müddətində real vaxt rejimində onu maraqlandıran suallara cavab almaq imkanı əldə edir. Nazirlik tərəfindən təqdim olunan digər elektron xidmət - vergi kalkulyatoru vasitəsilə istifadəçi yeddi göstərici üzrə vergiləri elektron formada hesablamaq imkanı əldə edir. Ödənişsiz həyata keçirilən bu xidmətdən istifadə etmək istəyən şəxs nazirliyin rəsmi internet səhifəsində qeydiyyatdan keçmədən sərbəst şəkildə sorğu göndərə bilir».

Bildirilmişdir ki, Vergilər Nazirliyi hazırda 57 elektron xidmət göstərir və xidmətlərin çeşidinin artırılması istiqamətində işlər davam etdirilir. «Vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin spektrinin genişləndirilməsi, e-xidmətlərdən istifadənin kütləviləşdirilməsi qarşıda duran başlıca vəzifələrdəndir. Burada məqsəd gələcəkdə vergi ödəyiciləri ilə birbaşa əyani təmas formalarını məhdudlaşdırmaq, xidmətlərin elektron formada qəbul edilməsinin kəmiyyətinin və keyfiyyətinin genişləndirilməsinə şərait yaradan müasir informasiya texnologiyalarından istifadə etməkdir».

### «E-ödəniş» xidmətləri ilə bağlı yeni dövlət proqramı hazırlanıb

*Mərkəzi Bankın (MB) Milli ödəniş sisteminin inkişafı və nəzarəti şöbəsinin rəisi Ramil Mahmudov*



bildirmişdir ki, MB son illərdə ölkədə elektron ödəniş sistemlərinin yaradılması və nağdsız hesablaşmaların artırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirir. Bu strategiyanın əsas istiqamətlərindən biri iri və təcili ödənişlər üzrə Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sisteminin (AZİPS), eləcə də xırda və daim təkrarlanan ödənişlərin elektron daşıyıcılarla həyata keçirilməsinə imkan verən Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sisteminin (XÖHKS) yaradılmasıdır. Bu sistemlərin istifadəyə verilməsi ilə banklararası hesablaşmaların tam elektronlaşdırılmasına nail olunmuşdur: «Milli Ödəniş Sisteminin inkişafında hökumət tərəfindən bir sıra siyasi qərarların qəbul edilməsinin mühüm əhəmiyyəti olmuşdur. Ölkə başçısı tərəfindən «Azərbaycan Respublikasında Milli Ödəniş Sisteminin inkişafı üzrə 2005-2007-ci illər üçün Dövlət Proqramı» çərçivəsində müxtəlif sahələri əhatə edən ölkə miqyaslı layihələrin reallaşdırılmasına və nağdsız hesablaşmaların əhatə dairəsinin genişləndirilməsi istiqamətində bir sıra mühüm tədbirlərin həyata keçirilməsinə nail olunmuşdur.

**Davamı 4-cü səhifədə**

# «Elektron xidmətlər: çevik və səmərəli idarəçiliyin mütərəqqi modeli»

**Əvvəli 3-cü səhifədə**

Proqramın icrası çərçivəsində 2005-ci ildə ödəniş kartları bazarının daha da inkişaf etdirilməsi məqsədilə Mərkəzi Bank tərəfindən «MilliKart» prosessinq mərkəzi yaradılmış və 2006-cı ildə respublikada fəaliyyət göstərən 18 kommersiya bankının idarəçiliyinə və istifadəsinə verilmişdir. «MilliKart» prosessinq mərkəzinin istismara verilməsi ilə ölkənin kart bazarında aktivlik artmış, beləliklə də bu sahədə rəqabət mühitinin formalaşdırılmasına nail olunmuşdur. 2008-ci ildə kommunal ödənişlərin yığım səviyyəsinin artması və bu sahədə maliyyə dövriyyəsinin bank sisteminə cəlb edilməsi, habelə kommunal xidməti haqlarının nağdsız ödəniş vasitələri ilə toplanması imkanının yaradılması məqsədilə Mərkəzi Bank tərəfindən Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sistemi (KÖMİS) istismara verilmişdir».

Qeyd olunmuşdur ki, ödəniş sistemlərinin coğrafi əhatə dairəsinin genişləndirilməsi, regionlara istiqamətləndirilməsi, eyni zamanda regionlarda təsərrüfat subyektlərinin və ev təsərrüfatlarının maliyyə xidmətlərinə çıxış imkanlarının daha da artırılması məqsədilə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə birlikdə həyata keçirilən «Azərpoçt» layihəsinin başa çatdırılması nəticəsində «Azərpoçt» MMC-nin filial və şöbələrində maliyyə, o cümlədən nağdsız ödəniş xidmətlərinin göstərilməsinə imkan verən infrastruktur yaradılmışdır. Natiq onu da bildirmişdir ki, ölkədə nağdsız hesablaşmaların həcminin artırılması və Elektron Hökumət quruculuğunun inkişaf etdirilməsi məqsədilə vergi, gömrük, rüsum, icarə haqqı və digər ödənişlərin yalnız bank və ya ödəniş kartları vasitəsilə həyata keçirilməsi, həmçinin dövlət orqanları tərəfindən göstərilən xidmətlərə görə rüsumların real vaxt rejimində elektron formada qəbulunun təmin edilməsi məqsədilə KÖMİS-in platformasında Hökumət Ödəniş Portalı yaradılmışdır. Qısa müddət ərzində Hökumət Ödəniş Portalı artıq Milli Ödəniş Sistemi infrastrukturunun sosial əhəmiyyətli əsas komponentlərindən birinə çevrilmişdir. Bundan başqa, pensiya, təqaüd və bir sıra sosial müavinətlərin, büdcədən maliyyələşən təşkilatlarda çalışan işçilərin əməkhaqlarının kartlar vasitəsilə verilməsi ödəniş kartları bazarında canlanma yaratmışdır. 2013-cü ilin səkkiz ayı ərzində banklar tərəfindən dövriyyəyə buraxılmış ödəniş kartlarının sayı 5,3 mln. ədədə, quraşdırılmış bankomatların sayı 2.375 ədədə, POS-terminalların sayı isə 35.715 ədədə çatdırılmışdır».

R.Mahmudov elektron ödəniş sisteminin inkişafı məqsədilə Mərkəzi Bankla Vergilər Nazirliyi arasında sıx əməkdaşlığın qurulduğunu bildirmişdir. Birgə tədbirlər nəticəsində təsərrüfat subyektlərində POS-terminalların quraşdırılmasının sürətləndirilməsi və nağdsız hesablaşmaların artırılması məqsədilə stimullaşdırıcı, inzibati-tənzimləyici tədbirlərdən ibarət təkliflər paketi hazırlanaraq hökumətə təqdim edilmişdir. Eyni zamanda, beynəlxalq kart təşkilatları ilə əməkdaşlıq nəticəsində «Visa Inc.» və «MasterCard Worldwide» beynəlxalq kart təşkilatları tərəfindən banklarla birlikdə nağdsız hesablaşmalar üzrə kart sahibləri arasında mütəmadi olaraq stimullaşdırıcı kampaniyalar həyata keçirilir. Hökumətə təqdim edilmiş «Azərbaycan Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin genişləndirilməsi üzrə 2013-2017-ci illər üçün Dövlət Proqramı» layihəsi ölkədə nağdsız ödəniş alətlərindən istifadənin cəmiyyətdə gündəlik davranış normasına çevrilməsi, hər bir təsərrüfat subyektinin, geniş əhali təbəqəsinin elektron ödəniş xidmətlərindən aktiv istifadəyə cəlb edilməsi üçün kompleks tədbirləri özündə əks etdirir. Dövlət proqramında müasir elektron ödəniş alətləri və bank texnologiyalarından istifadənin genişləndirilməsi, elektron ticarətin inkişafının sürətləndirilməsi, nağdsız dövriyyənin xüsusi çəkisinin artırılması, ödəniş sistemləri və hesablaşmalar sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi və təsərrüfat subyektlərinin, geniş əhali kütləsinin elektron ödəniş xidmətlərindən aktiv istifadəyə cəlb edilməsi istiqamətində bir sıra mühüm tədbirlər nəzərdə tutulmuşdur.

### Elektron Hökumət Portalının fəaliyyətinin təkmilləşdirilməsi davam etdirilir

*Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzinin baş mütəxəssisi, Dövlət reyestri şöbəsinin rəisi İlqar Abdullayev* qeyd etmişdir ki, dövlət orqanlarının «bir pəncərə» prinsipi əsasında təşkil olunan elektron xidmətləri Elektron Hökumət Portalında cəmləşdirilmiş, təmsil etdiyi nazirlik portalın operatoru müəyyən olunmuşdur. Nazirlik bu siyasətə uyğun olaraq Elektron Hökumətin formalaşdırılması üzrə digər dövlət orqanları ilə qarşılıqlı fəaliyyət göstərir və müvafiq infrastrukturun yaradılması, habelə təkmilləşdirilməsi üzrə fəaliyyət həyata keçirir. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (RİTN) tərəfindən dövlət qurumları arasında təhlükəsiz informasiya mübadiləsinin aparılması məqsədilə bütün dövlət qurumlarının vahid texnoloji standartlar əsasında Elektron Hökumət Portalına inteqrasiya olunması istiqamətində mühüm işlər görülmüşdür.



«2013-cü il sentyabrın 25-dək portalda 45 qurum tərəfindən 256 elektron xidmət istifadəçilərə təqdim edilmişdir. «E-hökumət» portalına daxilolma prosedurunun sadələşdirilməsi məqsədilə RİTN tərəfindən «Elektron Xidmətlər Portalına daxil olmaq üçün kod və parolların internet vasitəsilə alınması» elektron xidməti işlənilib hazırlanmış və vətəndaşların istifadəsinə verilmişdir. «E-xidmət» vasitəsilə heç yerə müraciət etmədən və vaxt itirmədən birbaşa internet üzərindən müraciət edərək kod və parol əldə etmək mümkündür. Eyni zamanda, bütün respublika ərazisində poçt və abunə şöbələri kod və parol olan zərflərlə təmin edilmişdir və hazırda müvafiq poçt və abunə şöbələrinə müraciət etməklə portala daxil olmaq üçün kod və parol əldə etmək mümkündür».

Bildirilmişdir ki, portala daxilolma üsullarının sadələşdirilməsi ilə yanaşı, əhalinin elektron xidmətlərdən faydalanması məqsədilə daim maarifləndirmə işləri aparılır və bu məqsədlə ölkə ərazisində əhalinin sıx olduğu məntəqələrdə, o cümlədən poçt şöbələrində, telefon qovşaqlarında pulsuz məlumatlandırıcı bukletlər paylanılır, reklam guşələri yerləşdirilir, kompüter köşkləri quraşdırılır. Həmin məntəqələrdə RİTN-in Məlumat Hesablama Mərkəzinin işçiləri əhali ilə söhbətlər aparır, insanlara Elektron Hökumət Portalının imkanları barədə məlumat verilir. Eyni zamanda ayda bir dəfə «Elektron Hökumət Bülleteni» çap edilib pulsuz paylanılır, sosial şəbəkələrdə və bir sıra tanınmış portallarda reklam xarakterli məlumatlar yerləşdirilir, televiziya kanallarında reklamlar verilir.

E-xidmətlərdən istifadənin statistikasına toxunan İlqar Abdullayev qeyd etmişdir ki, əhali tərəfindən ən çox istifadə edilən elektron xidmətlər RİTN-ə məxsusdur. Bu ilin avqust ayı ərzində RİTN-in e-xidmətlərindən 57.769 dəfə istifadə edilib. Ən çox istifadə olunan isə «Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi» xidməti olmuşdur. Bu xidmət vasitəsilə vətəndaşlar yalnız şəhər telefonunu daxil etməklə rabitə xidmətləri borclarını ödəməklə yanaşı, həm də kommunal xidmət borclarını da ödəyirlər. Digər dövlət strukturları arasında Vergilər Nazirliyinin və Dövlət Sosial Müdafiə Fondunun təqdim etdikləri elektron xidmətlərin istifadəçilərinin sayı da çoxdur.

Elektron Hökumət Portalının fəaliyyətinin təkmilləşdirilməsi işlərinin davam etdirildiyini bildirən İ.Abdullayev yeniliklərdən biri kimi vətəndaşların bir çox e-xidmətlərdən autentifikasiyasız - yəni sistemə daxil olmadan yararlandığını demişdir. «Yaxın gələcəkdə Azərbaycanda mobil cihazların qeydiyyat sistemi - İMEİ kodların qeydiyyatı, mobil nömrələrin və ADSL internet xidmətlərinin daşınması xidmətləri də portal vasitəsilə həyata keçiriləcək.

### Yeni xidmətlər sahibkarların işini asanlaşdırır

*İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığın inkişafı siyasəti şöbəsinin sektor müdiri Fərid Salmanov* təmsil etdiyi nazirliyin göstərdiyi elektron xidmətlər barədə məlumat vermişdir. «İqtisadi İnkişaf Nazirliyi yeni və qabaqcıl informasiya texnologiyalarının tətbiqinə böyük önəm verir, çevik idarəetmənin təmin edilməsi, şəffaflığın artırılması, sahibkarlarla birbaşa təmasın minimuma endirilməsi baxımından elektron xidmətlərin tətbiqini genişləndirmək üçün davamlı tədbirlər görür. Respublikamızda həyata keçirilən «Elektron Azərbaycan» proqramına uyğun olaraq, nazirliyin *www.economy.gov.az* internet səhifəsində elektron xidmətlər bölməsi yaradılmış, bölmədə nazirlik tərəfindən müxtəlif fəaliyyət növlərinə lisenziyaların və malların mənşə və keyfiyyət sertifikatlarının verilməsi üçün tələb olunan sənədlərin siyahısı və müraciət edən şəxs tərəfindən doldurulmalı olan ərizənin elektron forması yerləşdirilmişdir. İqtisadi İnkişaf Nazirliyi tərəfindən yeddi istiqamətdə interaktiv, doqquz istiqamət üzrə isə informativ elektron xidmətlər göstərilir».



Qeyd olunmuşdur ki, sahibkarlar İqtisadi İnkişaf Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərdən istifadə edərək tələb olunan sənədləri elektron formada təqdim edirlər. Həmin xidmətlər üçün qanunvericiliklə müəyyən olunmuş dövlət rüsumlarının və xidmət haqlarının ödənişi onlayn rejimdə həyata keçirilə və ya ödənişə dair təsdiqedici sənədlər elektron qaydada müvafiq sənədlərə əlavə edilərək göndərilə bilər. «Nazirlikdə kommersiya hüquqi şəxslərə münasibətdə qrant müqavilələrinin elektron qeydiyyatı da həyata keçirilir. Eyni zamanda, cərimə və maliyyə sanksiyalarının onlayn rejimdə elektron ödənilməsi üçün imkanlar yaradılıb. Bütün bunlarla yanaşı, İqtisadi İnkişaf Nazirliyinin elektron informasiya resursları vasitəsilə vətəndaşların onlayn rejimdə qəbula yazılmaları, onların müraciətlərinin onlayn rejimdə qəbulu və cavablandırılması, vətəndaşların nazirliyin məsul işçiləri ilə canlı videoəlaqəsi, vətəndaşlarla onlayn rejimdə sual-cavab və ən çox verilən suallar sistemi, dövlət proqramlarının icrası barədə informasiya sistemi (rəqəmsal xəritə), icazələr üzrə *www.icazeler.gov.az* Elektron İnformasiya Portalı, *www.b2b.az* Elektron Ticarət Portalı, sahibkarlıq subyektləri və vətəndaşlar üçün nazirliyin press-relizlərinə elektron abunə yazılışı kimi informativ xidmətlərin göstərilməsi təşkil olunmuşdur. «B2B» Elektron Ticarət Portalının xidmətinə ümumilikdə 11.000-ə yaxın müraciət edilmişdir. Ölkə xaricindən isə 46 dövlətdən olan istifadəçilər öz müraciətlərini «B2B» Elektron Ticarət Portalına göndərmişlər. 2012-ci ilin mart ayından indiyə qədər ümumi sayı 126 olmaqla 16 mərkəzi və bir yerli icra hakimiyyəti orqanı tərəfindən qanunvericilik aktlarının layihələri hazırlanmış və İcazələrin Elektron İnformasiya Portalının «Sahibkarlıq sahəsinə aid qanunvericilik aktlarının layihələri» xidmət bölməsində yerləşdirilməsi təmin edilmişdir. İcazələrin Elektron İnformasiya Portalının xidmətindən ümumilikdə 183.920 istifadəçi, o cümlədən sentyabr ayında 10.532 istifadəçi yararlanmışdır. Ölkə xaricindən 82 dövlətdən istifadəçilər İcazələrin Elektron İnformasiya Portalına müraciət etmişlər».

Milli sahibkarlığın inkişafına dəstək çərçivəsində yerli sahibkarların xarici ölkələrdə qeydiyyatının və fəaliyyətinin asanlaşdırılması məqsədilə yeni «e-xidmət»in istifadəyə verildiyi də diqqətə çatdırılmışdır. Belə ki, yerli sahibkarlar artıq hər hansı xarici dövlətə getmədən orada «e-qeydiyyat»dan keçmək və fəaliyyətlərini «elektron kargüzarlıq» vasitəsilə tənzimləmək imkanına malikdirlər. Bununla yanaşı, nazirlik Avropa İttifaqının «İqtisadi İnkişaf Nazirliyinə dəstək» layihəsi ilə birgə İxracata Yardım Xidmət Mərkəzinin internet səhifəsini istifadəyə verib. Bu səhifə Avropa Birliyi bazarına Azərbaycandan ixracın asanlaşdırılması məqsədilə yaradılmışdır. Sahibkarlar səhifədən istifadə edərək Avropa Birliyinin Ümumiləşdirilmiş İmtiyazlar Sistemindən (GSP) faydalanırlar.

### Yeni xidmətlərin tətbiqinə başlamaq zəruridir

*«Multimedia» İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzinin rəhbəri Osman Gündüz*



bildirmişdir ki, ölkə rəhbərliyi tərəfindən Elektron Hökumətin formalaşması sahəsində siyasi iradə ortaya qoyulub, bu istiqamətdə dövlət proqramları qəbul olunub, dövlət qurumlarının elektron xidmətlərinin təşkili ilə bağlı sərəncam imzalanıb. «Son illər ərzində ölkədə internet istifadəçilərinin və əhalidəki kompüterlərinin sayı artıb, dövlət qurumlarının informasiyalaşması istiqamətində xeyli iş görülüb, dövlət informasiya sistemləri yaradılıb. Mərkəzi icra orqanlarının internet resurslarında elektron xidmətlər bölməsi yaradılıb, hər bir dövlət qurumu öz standartları əsasında informasiya sistemini formalaşdırıb, «Elektron imza» infrastrukturu qurulub. Yəni bu sistemin davamlı fəaliyyəti üçün bütün imkanlar mövcuddur və müşahidələr göstərir ki, insanların da elektron xidmətlərdən istifadəyə marağı böyükdür. Vətəndaşlar bu xidmətlərdən istifadə etdikcə onun üstünlüklərini başa düşürlər, xidmətlərə tələbat artır. Artıq cəmiyyətdə belə bir inam formalaşıb ki, elektron xidmətlərin tətbiqi uzun müddət növbələrdə dayanmağın, tez-tez dövlət qurumlarına üz tutmağın qarşısını alır, vaxt itkisinə yol verilmir, şəffaflığın güclənməsinə və korrupsiya hallarının aradan qaldırılmasına kömək edir, dövlət idarəetməsini effektiv və çevik edir. Ona görə də cəmiyyətin tələbatının artması fonunda daha yeni xidmətlərin tətbiqinə başlamaq vacibdir.

Elektron Hökumətlə bağlı yeni dövlət proqramının hazırlanmasında iştirak etdiklərini bildirən O.Gündüz İctimai Şuranın təkliflərindən danışmışdır. Qurum mərkəzi icra hakimiyyəti orqanları və bələdiyyələr tərəfindən təqdim olunan bütün xidmətlərin inventarlaşdırılması, yalnız elektron formada təqdim olunan xidmətlərin deyil, bütün xidmətlərin vahid reyestrinin (elektron və onlayn formada) hazırlanması, xidmətlər göstərilməsi üzrə bürokratik proseslərin elektronlaşmasının qarşısının alınması, artıq olan prosedurlarını və zərurət olmadan tələb olunan sənədlərin ləğv edilməsi və ya sayının azaldılmasını təklif edib. Eyni zamanda, təkliflərdə «e-xidmət»lərin kütləvilik və sosial əhəmiyyətlilik prinsiplərinin hazırlanması, «e-hökumət» quruculuğuna aid olan hüquqi-normativ aktlardakı müəyyən ziddiyyətlərin, paralelliyin və qeyri-müəyyənliyin aradan qaldırılması, «e-xidmət»lərin keyfiyyət göstəricilərinin üzə çıxarılması üçün monitorinqlərin aparılması və digər məsələlər əksini tapıb.

«E-xidmət»lər göstərilməsində Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin («ASAN xidmət») fəaliyyətinin mühüm əhəmiyyət kəsb etdiyini bildirən O.Gündüz «ASAN»la İctimai Şuranın dövlət orqanları tərəfindən təqdim olunan elektron xidmətlərin monitorinqi üçün metodika hazırladığını da diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, Avropa Birliyi və BMT standartları əsasında tərtib olunan metodikada dövlət orqanlarının göstərdiyi «e-xidmət»lər 17 parametr üzrə araşdırılacaq. Yaxın günlərdə başa çatacaq monitorinqin metodikası təqdim olunacaq».

### «ASAN xidmət» yeni xidmətlər təqdim etməyə hazırlaşır»

*Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Sosial innovasiyalar və strateji araşdırmalar şöbəsinin baş məsləhətçisi Ulduzə Xəlilova* demişdir ki, agentlik ilk gündən elektron xidmətlərdən istifadəyə geniş diqqət ayırır. Bildirilmişdir ki, yeni dövlət qurumunun əsas fəaliyyət istiqamətlərinə «ASAN xidmət» mərkəzlərinin vahid şəkildə idarə edilməsi, xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanları əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyasının və elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi məsələləri aiddir: «Agentlik, əsasən, «ASAN xidmət» mərkəzlərinin vahid şəkildə idarə edilməsi və dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası və elektron xidmətlərin təşkili prosesinin təkmilləşdirilməsi istiqamətində fəaliyyət göstərir. Bugünədək respublika üzrə 4 «ASAN xidmət» mərkəzi istifadəyə verilmişdir. Bakı şəhərində 3, Sumqayıtda 1 mərkəz fəaliyyət göstərir. Yaxın günlərdə Gəncə «ASAN xidmət» Mərkəzi öz qapılarını vətəndaşların üzünə açacaqdır. Əlavə olaraq səyyar «ASAN xidmət» avtobusları da may ayından etibarən bölgələrdə vətəndaşlara səyyar rejimdə xidmət göstərir».

Bildirilmişdir ki, «ASAN xidmət» mərkəzlərinə indiyədək 550 minə yaxın müraciət daxil olmuşdur.

Xidmət dövrü ərzində ümumilikdə 250 min hazır sənəd verilmiş, müraciətlərin orta gündəlik sayı 3.600 nəfər olmuşdur. U.Xəlilova onu da bildirmişdir ki, agentlik yaxın perspektivdə 3 yeni elektron xidmət təqdim etməyi planlaşdırır. Bu elektron xidmətlər ilk növbədə vətəndaşların «ASAN xidmət» mərkəzlərindən yararlanmasına yardım etmək məqsədi daşıyır: «Bunlardan biri «ASAN xidmət» mərkəzlərində göstərilən xidmətlərdən istifadə etmək üçün onlayn növbə tutulması» xidmətidir. Bu xidmət mərkəzə gəlmədən əvvəlcədən növbə tutmağa imkan yaradır. Vətəndaş seçdiyi vaxtda istədiyi mərkəzə gəlir, xüsusi kodu daxil edərək növbə gözləmədən istədiyi xidmətdən yararlanır. Bu, vətəndaşın vaxtına qənaət etməyə və xidmət prosesini sürətləndirməyə kömək edir. Xidmət *asan.gov.az* saytında və Elektron Hökumət Portalında təqdim edilir. Vətəndaşlar qeydiyyatsız şəkildə, şəxsi məlumatları daxil etməklə uyğun vaxtı, lazım olan xidməti, onlara yaxın yerləşən «ASAN xidmət» mərkəzini seçir və xidmətdən yararlanırlar. «ASAN xidmət» mərkəzlərində göstərilən xidmət nəticəsində təqdim edilməli olan hazır sənədlə bağlı məlumat verilməsi» daha bir xidmətdir. Bu, mərkəzə gəlmədən sənədlərin hazır olub-olmadığını əvvəlcədən müəyyənləşdirməyə imkan verir. Xidmət hazırlanma mərhələsindədir və yaxın zamanda vətəndaşlara təqdim



ediləcəkdir. Nəhayət, üçüncü xidmət «İnformasiya sistemləri, informasiya ehtiyatları və elektron xidmətlərlə bağlı dövlət orqanları tərəfindən təqdim edilən layihələrə (təkliflərə) rəy verilməsi üçün müraciət və sənədlərin qəbulu» elektron xidmətidir. Bu xidmət vasitəsilə dövlət orqanları tərəfindən təqdim edilən layihələrin qəbulu prosesi elektronlaşdırılacaqdır. Bu xidmət də hazırlanma mərhələsindədir, yaxın zamanda istifadəyə veriləcəkdir».

Qeyd edilmişdir ki, elektron xidmətlərin təşkili prosesinin təkmilləşdirilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir: «Bu məqsədlə dövlət orqanlarında elektron xidmətlərin təşkili və göstərilməsi üzrə qiymətləndirmə» qaydaları hazırlanmış, 40 dövlət orqanı tərəfindən göstərilən 439 elektron xidmət üzrə qiymətləndirmə aparılmışdır. Bu xidmətlərdən 425-i Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli qərarı ilə təsdiq edilmiş «Elektron xidmət növlərinin Siyahısı»na daxil edilmişdir.

**Davamı 5-ci səhifədə**

# «Elektron xidmətlər: çevik və səmərəli idarəçiliyin mütərəqqi modeli»

**Əvvəli 4-cü səhifədə**

14-ü isə siyahıda olmayan, lakin müxtəlif dövlət orqanları tərəfindən təqdim edilən elektron xidmətlərdir. Məqsəd elektron xidmətlərin daha təkmil, daha müasir, daha rahat formada təqdim edilməsi və vətəndaşların məmnunluğudur».

## Azərbaycan MDB-də avtomatlaşdırılmış pensiya sisteminə keçmiş ilk ölkədir

*Dövlət Sosial Müdafiə Fondunun Əmək pensiyaları şöbəsinin müdir müavini Anar İsayev* de-



mişdir ki, əhalinin müxtəlif kateqoriyaları ilə sıx işləyən fond öz fəaliyyətində informasiya texnologiyalarının ən son yeniliklərindən istifadə etməyə, xüsusilə də elektron xidmətləri genişləndirməyə çalışır. Bildirilmişdir ki, Dövlət Sosial Müdafiə Fondunun *www.dsmf.gov.az* internet səhifəsində bu məqsədlə mükəmməl müştəri xidmətləri sistemi yaradılmışdır: «İstənilən vətəndaş *www.dsmf.gov.az* internet səhifəsinə daxil olaraq sual-cavab, pensiya kalkulyatoru, şəxsi fərdi hesabında toplanmış pensiya sığorta kapitalı və digər xidmətlərdən istifadə edə bilər. Dövlət Sosial Müdafiə Fondunun elektron xidmətləri, eyni zamanda, *www.e-gov.az* Elektron Hökumət Portalında yerləşdirilmişdir və həmin portalda ən çox istifadə olunan xidmətlərdən biridir».

A.İsayev MDB məkanında ilk dəfə olaraq 2013-cü ilin iyul ayından etibarən Dövlət Sosial Müdafiə Fondu tərəfindən yaşa görə əmək pensiyalarının avtomatlaşdırılmış qaydada vahid mərkəzdən təyinatına başlanıldığını da diqqətə çatdırmışdır: «Müasir standartlara uyğun avtomatlaşdırılmış pensiya təyinatı Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi «2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı»nda əksini tapmış mühüm vəzifələrdəndir. Dövlət Sosial Müdafiə Fondunda bu məqsədlə xüsusi «Çağrı Mərkəzi» (190-0) fəaliyyət göstərir. Pensiya yaşına çatmış hər bir vətəndaş hər hansı sənəd toplamadan və vaxt itirmədən göstərilən nömrəyə zəng vurub şəxsiyyət vəsiqəsinin nömrəsi barədə məlumat verməklə real vaxt rejimində dərhal pensiya təyinatı hüququnu reallaşdıra bilər. Zəng vuran vətəndaşın şəxsiyyət vəsiqəsinin nömrəsi sistemə daxil edilərək təsdiqlənən kimi fondun fərdi məlumatlar bazasına inteqrə olunur və avtomatlaşdırılmış qaydada əmək pensiyası təyinatı aparılır, vətəndaşa ona təyin olunan pensiyanın məbləği barədə məlumat verilir».

Qeyd olunmuşdur ki, yeni sistemin tətbiqi DSMF-nin fəaliyyətində şəffaflığın daha da artmasına, əlavə vaxt itkisinin qarşısının alınmasına, vətəndaşlarla fond arasında münasibətlərin sadələşdirilməsinə, insan amilinin rolunun azaldılmasına imkan yaradır. A.İsayev demişdir ki, vətəndaşlar fərdi hesablarında məlumatların tam əks olunmasında xüsusi maraqlı olmalıdırlar: «Vətəndaşlar ölkəmizdə fərdi uçot sisteminin tətbiqindən əvvəlki dövrə, yəni 2006-cı ilin 1 yanvarınadək iş stajlarının qeydiyyata alınmasında aktivlik göstərməlidirlər. Çünki avtomatlaşmış pensiya təyinatı yalnız sistemdə qeydiyyata düşmüş elektron göstəricilər əsasında aparılır. 25 sentyabr 2013-cü il tarixinə olan məlumata görə, 464 nəfərə avtomatlaşdırılmış qaydada yaşa görə əmək pensiyası təyin olunmuşdur».

A.İsayev DSMF-nin göstərdiyi digər elektron xidmətlər barədə də məlumat vermişdir.

## Azərbaycanın sabit və davamlı inkişafına mühüm töhfə

*Milli Məclisin deputatı Çingiz Qənizadə* bildirmişdir ki, Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli fərmanı ilə Elektron Hökumətin formalaşdırılması və elektron xidmətlərin tətbiqi dairəsinin genişləndirilməsi sahəsində tədbirlərə yeni təkan verilmişdir: «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərman nəinki Elektron Hökumətin inkişafı, həm də korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Fərmanda gös-



tərildiyi kimi, elektron xidmətlərin genişləndirilməsi korrupsiya hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsi baxımından təsirli vasitələrdən biridir. Elektron xidmətlər eyni zamanda dövlət orqanı ilə vətəndaş arasında qarşılıqlı münasibətlərin səmərəliliyi və keyfiyyətinin artırılmasında, şəffaflığın təmin edilməsində, korrupsiyaya şərait yaradan halların aradan qaldırılmasında mühüm əhəmiyyət daşıyır. Elektron xidmətlər dövlət orqanı əməkdaşları ilə vətəndaş arasında birbaşa təması minimuma endirməklə korrupsiyaya şərait yaradan halları aradan qaldırır, elektron xidmətin geniş miqyasda həyata keçirilməsi korrupsiyaya qarşı mübarizədə əhəmiyyətli tədbirlərdən birinə çevrilir. Fərmanda bu məqsədlə dövlət qulluqçularının informasiya texnologiyalarından istifadə sahəsində hazırlıq səviyyələrinin artırılması üçün tədris kurslarının təşkili də nəzərdə tutulmuşdur».

Qeyd olunmuşdur ki, artıq vətəndaşlar elektron xidmətlərin üstünlüklərini yeni yaradılmış bir sıra portalların uğurlu fəaliyyəti sayəsində praktik olaraq hiss edir, atılan addımları razılıqla qarşılayırlar. Respublikamızda «e-hökumət» quruculuğu istiqamətində ən mühüm addımlardan biri 2012-ci ildə «bir pəncərə» prinsipi ilə işləyən və dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin cəmləşdirildiyi vahid Elektron Hökumət Portalının (*www.e-gov.az*) istifadəyə verilməsidir: «Portal «e-xidmət»lər göstərilməsi zamanı dövlət orqanlarının informasiya sistemləri arasında mübadiləni təmin etməyə imkan verir. Burada hər bir dövlət qurumu elektron xidmətlərini «bir pəncərə» prinsipi əsasında istifadəçilərə təqdim edir, məlumatların keyfiyyətinə, tamlığına və düzgünlüyünə cavabdehlik daşıyır. Vətəndaş istənilən dövlət qurumuna müraciət etməklə ona aid lazımi məlumatı qanun çərçivəsində əldə edə bilir. Portal vasitəsilə dövlət idarəçiliyində keyfiyyətli elektron xidmətlərin göstərilməsi vətəndaşların həmin xidmətlərdən fəal istifadəsinə imkan yaradır. Fikrimizcə, gələcəkdə ictimai əhəmiyyətli kommersiya qurumlarının - mobil və internet xidmətləri göstərən özəl şirkətlərin, bankların, sığorta şirkətlərinin və s. vahid elektron xidmətlər reyestrinin yaradılmasına da ehtiyac var. Məsələn, bu gün vətəndaşlar elementar xidmətlərdən istifadə üçün bankların filiallarına və ya mobil müştəri xidmətlərinə üz tuturlar. Eləcə də ikitərəfli bağlanmış nömrələrin aktivləşdirilməsi üçün mobil şirkətlərin filiallarına getmək, növbə tutmaq lazım gəlir. Halbuki bu cür xidmətləri elektronlaşdırmaq mümkündür. Yeni dövlət proqramında sahibkarlıq subyektlərinin «e-xidmət»lərin tətbiqinə təşviq edilməsi üçün müəyyən müddəalar əksini tapmalıdır».

Bildirilmişdir ki, ciddi problemlərdən biri də əhalinin elektron xidmətlərdən istifadə vərdişlərinin aşağı səviyyədə olmasıdır. Bu problemin həlli diqqətdən qaçırılmamalı, orta ümumtəhsil, orta ixtisas və ali məktəblərdə tədris olunan İKT fənni çərçivəsində «e-xidmət»lərə geniş yer verilməlidir: «Bununla bağlı vətəndaş cəmiyyəti institutları və medianın imkanlarından geniş istifadə olunmalı, müvafiq layihələr - treninqlər, seminarlar, «dəyirmi masa»lar təşkil olunmalıdır. Hesab edirəm ki, Rabitə və İnformasiya Texnologiyaları Universitetinin fəaliyyətə başlaması bu sahədə işlərin sistemli və ardıcıl şəkildə, elmi əsaslarla aparılmasına geniş imkanlar açacaqdır».

Qeyd olunmuşdur ki, «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası ilə Azərbaycanda Elekton Hökumətə 100%-lik keçid nəzərdə tutulmuş, bunun reallaşdırılması mexanizmləri göstərilmişdir: «Əlbəttə, ölkəmiz inkişaf etdikcə, texnoloji şüur səviyyəsi yüksəldikcə «e-xidmət»lərin çeşidi və səviyyəsi də yüksələcəkdir. Bu baxımdan dövlət qurumlarının qarşısında duran başlıca vəzifə vətəndaşların bu sahədəki ehtiyac və istəklərinin öyrənilməsi, praktik surətdə reallaşdırılmasıdır. Əminik ki, ümumilikdə həyata keçirilən tədbirlər, xüsusən də imzalanacaq növbəti dövlət proqramı Azərbaycanın bütövlükdə Avropa məkanında ən qabaqcıl ölkələrdən birinə çevrilməsini təmin edəcəkdir».

## Elektron xidmətlər nağdsız ödəniş sisteminin inkişafına təkan verir

*«AtaBank»ın Bank kartları və elektron xidmətlər departamentinin direktoru Teymur Axundov*



bildirmişdir ki, elektron xidmətlərin bank sistemində geniş tətbiqi yeni dövrün tələblərindən irəli gələrək həm də nağdsız ödəniş sisteminin inkişafına təkan verir. O, həmçinin vurğulamışdır ki, Prezident İlham Əliyevin 22 noyabr 2005-ci il tarixli «Azərbaycan Respublikasında ödəniş sistemlərinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında» sərəncamı respublikada ödəniş sistemlərinin inkişafına, iqtisadi fəaliyyət göstərən şəxslərin və əhalinin elektron ödəniş sistemlərindən daha fəal istifadə etməsinə yeni imkanlar açmışdır. Qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 4 oktyabr tarixli qərarı ilə təsdiq edilmiş «POS-terminallar quraşdırılacaq obyektlərin müəyyənləşdirilməsi meyarları» və «Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi qaydaları» ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı müştərilərlə hesablaşmalar aparılması, habelə vergilərin və dövlət orqanları tərəfindən göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənilməsi üçün təsərrüfat subyektlərində POS-terminalların mərhələlərlə quraşdırılması, qeydiyyatı, istifadəsi, habelə POS-terminalların tətbiqi ilə bağlı digər münasibətləri tənzimləyir.

Azərbaycanın bank sektorunda liderlərdən olan «AtaBank» ASC respublikanın ödəniş kartları bazarında ödəniş kartlarının sayına, ekvayrinq şəbəkəsinin genişliyinə və elektron xidmət sahəsində göstərdiyi xidmət müxtəlifliyinə görə xüsusi çəkiyə sahibdir. Bank «Internet-banking», «Mobile-banking», «Card to card», «PIN change», «SMS-banking», «3D Secure», «Cash by code» kimi modern xidmətləri də həyata keçirir. Emissiya və ekvayrinq fəaliyyətinə nəzarət və dələduzluğa qarşı tədbirlərin həyata keçirilməsi üçün «AtaBank» ASC-də risklərin onlayn monitorinqi sistemi tətbiq edilmiş və xüsusi qrup yaradılmışdır: «Sentyabrın 1-dən bank tərəfindən emissiya edilib dövriyyəyə buraxılan plastik kartların sayı 26.500-ü keçmişdir. «AtaBank» ASC «Visa» beynəlxalq ödəniş sisteminin üzvü olaraq «Visa Electron», «Visa Classic», «Visa Gold», «Visa Business» və «Visa Platinum» kartlarını emissiya edir. 2013-cü ildən bank, həmçinin, «Maestro», «MasterCard Standard», «MasterCard Gold» və «MasterCard Platinum» kartlarını dövriyyəyə buraxmışdır. «AtaBank»ın kartları ilə mal almaq, bankomatlar və ya internet üzərindən kommunal haqları ödəmək, mehmanxanalarda bronlaşdırma aparmaq, avtomobilləri kirayəyə götürmək və digər xidmətlərdən yararlanmaq mümkündür. Bu kartlarla bütün dünya ölkələrində nağdsız əməliyyatları aparmaq olur. Cari ildə bankın bankomatlarının sayı artaraq 80-ə çatmışdır».

Bildirilmişdir ki, 1 sentyabr 2013-cü il tarixinə «AtaBank»ın ticarət, ictimai-iaşə və xidmət obyektlərində quraşdırılmış POS-terminalların sayı 8621 ədəd olmuşdur. Quraşdırılmış POS-terminalların sayına görə «AtaBank» ASC ölkədə banklar arasında birinci yerdədir. Təsərrüfat subyektlərində POS-terminallarla ödəniş qəbul edən əməkdaşların plastik kartlar və elektron ödənişlər sferasında bilik səviyyəsinin artırılması məqsədilə mütəmadi olaraq keçirilən treninq və seminarların, maarifləndirmə tədbirlərinin nəticəsidir ki, hazırda POS-teminal vasitəsilə aparılan əməliyyatların gündəlik sayı orta hesabla 600-800 ədəd təşkil edir.

Elektron ödəniş sistemlərinin təkmilləşdirilməsi, nağdsız ödəmələrin stimullaşdırılması məqsədilə «AtaBank» ASC 15 dekabr 2011-ci il tarixindən etibarən start verdiyi «Nağdsız ödə, nağd qazan» stimullaşdırıcı lotereya kampaniyasını da uğurla davam etdirir. Kampaniya başladığı vaxtdan bugünədək bankın POS-terminalları vasitəsilə aparılan əməliyyatların həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə üç dəfədən çox artmışdır.

2013-cü ilin fevral, mart və aprel aylarında «Neptun» supermarketlər şəbəkəsində «Visa International» beynəlxalq ödəniş sistemi ilə birgə Milli Kampaniya keçirilmişdir. Kampaniya çərçivəsində 3 ay ərzində yalnız «Neptun» supermarketlər şəbəkəsində bank-emitentdən asılı olmayaraq Visa kartı ilə alış-veriş edənlər məbləğə görə fərqli hədiyyələr əldə etmişlər: «2013-cü ildə «AtaBank» ASC «MasterCard Europe Sprl» beynəlxalq ödəniş sisteminin tamhüquqlu üzvü seçilmişdir. Bununla əlaqədar olaraq bu ildən başlayaraq «MasterCard Europe Sprl» ödəniş sistemi ilə müxtəlif kampaniyaların keçirilməsi planlaşdırılır».

## İcra orqanında elektron xidmətlərdən istifadəyə geniş yer verilir

*Binəqədi Rayon İcra Hakimiyyətinin mətbuat orqanı olan «Binəqədi» qəzetinin məsul katibi Novruz Novruzov* bildirmişdir ki, respublikamızda «e-hökumət» quruculucu sahəsində həyata keçirilən ardıcıl və sistemli tədbirlər məmur-vətəndaş münasibətlərinin sivil məcrada qurulmasına, cəmiyyətdə bürokratiya və korrupsiya kimi mənfi təzahürlərin aradan qaldırılmasına əlverişli imkan yaradır: «Təqdirəlayiq haldır ki, ümumrespublika tədbirləri ilə yanaşı, ayrı-ayrı dövlət qurumları öz təşəbbüsləri ilə telekommunikasiya və informasiya texnologiyalarının nailiyyətlərini mənimsəyərək onlardan idarəetmədə bəhrələnir, daha mükəmməl və müasir standartlara cavab verən iş metodları tətbiq edirlər. Binəqədi Rayon İcra Hakimiyyəti də yeniliyi vaxtında tətbiq etməyə çalışan icra strukturlarındandır. Təsadüfi deyildir ki, 2013-cü ildə Binəqədi rayonunda Elektron Hökumət quruculuğu sahəsində xeyli iş görülüb. İlk növbədə vaxt amilinin səmərəsini artırmaq və operativliyi yüksəltmək üçün bu ilin yanvar ayında rayonun elektron xəritəsi hazrlanaraq istifadəyə verilib. Elektron xəritə vasitəsilə ərazinin vəziyyəti və ərazidaxili planlaşdırma elementləri, ərazidə yerləşən obyektlərin ünvanları və xüsusiyyətləri təyin olunub. Nəticədə rayon təsərrüfatının idarəetməsi asanlaşıb».

Bildirilmişdir ki, 2013-cü ilin fevral ayında Azərbaycanda rayon icra hakimiyyətləri arasında ilk dəfə olaraq Binəqədidə vətəndaşlardan daxil olan müraciətlərin cavablandırılması və şikayətlərin qəbul edilərək operativ şəkildə araşdırmaya yönəldilməsi məqsədilə «Sakinlərin Müraciət Xidməti - 1646» yaradılmışdır: «Bu idarəetmə xidməti vətəndaşların problemlərinin həlli istiqamətində əhali ilə icra hakimiyyəti arasında əlaqələri xeyli möhkəmləndirmişdir. Yeni xidmət müraciət edənlərə həm məlumat almaq, həm də şikayətlərini daha çevik və operativ şəkildə müvafiq dövlət orqanına çatdırmaq imkanı vermişdir. Vətəndaş müraciətlərinə sistemli şəkildə yanaşma, şikayətlərin həllində, əhalinin informasiya əldə etməsində bərabərlik və ədalətlilik prinsipinin bərqərar olması rayonun yerli struktur orqanlarının məsuliyyət hissini xeyli artırmışdır. Xidmət pulsuzdur və sakinlərin şikayətinin araşdırılması zamanı hər hansı bir problem çıxmasın deyə danışıqlar qeydə alınır. Xidmət rəhbəri həftədə bir dəfə işin gedişatı barədə rayon icra hakimiyyətinin başçısına məlumat verir. Həmçinin şikayətlər araşdırılaraq həll olunması üçün müvafiq qurumlara göndərilir».

Qeyd olunmuşdur ki, xidmətə daxil olan gündəlik zənglərin sayı 20-30 arasında dəyişir: «İlk vaxtlar sakinlər yalnız şikayətlərini bildirirdilərsə, son vaxtlar xidmətə öz təşəkkürlərini bildirənlər də olur. Bu isə o deməkdir ki, zənglərin sayı artsa da, şikayətlərin sayı azalmağa doğru gedir. 2013-cü il sentyabrın 1-dək Sakinlərin Müraciət Xidmətinə 5 mindən çox zəng daxil olmuşdur. Müraciətlər üzrə tədbirlərin görülməsi 98% təşkil etmiş, hər zəngin qəbulu 7 saniyə çəkmişdir. Maraqlı cəhət odur ki, xidmətin əməkdaşları şikayətlər üzrə görülən tədbirlər barədə əks-əlaqə yaradaraq abonentləri məlumatlandırırlar».

## Ünvanlı sosial yardım üçün elektron müraciət imkanı yaradılıb

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İnformasiya texnologiyaları şöbəsinin baş mütəxəssisi Şamil Məmmədov* bildir-



mişdir ki, müasir dövrdə informasiya cəmiyyətinin formalaşdırılması baxımından vacib məsələlərdən biri də elektron hazırlığın inkişafının sürətləndirilməsidir. Qeyd olunmuşdur ki, elektron hazırlıq elektron xidmətlərin tətbiqinin genişlənməsini təmin etməklə yanaşı, Elektron Hökumət quruculuğuna aparan yolun mühüm bir komponentidir: «BMT-nin son illər açıqladığı hesabatlarda və digər İKT qurumlarının rəylərində ölkəmizin bir çox meyarlar üzrə regionda fərqlənməsi dövlətimizin ölkə rəhbərliyinin siyasi iradəsinin əyani təzahürü kimi qiymətləndirilə bilər. «Elektron iştirak» indeksi üzrə əmsal, eləcə də onlayn xidmətlərin miqyası ilə bağlı yüksək qiymət respublikada elektron cəmiyyət quruculuğu sahəsində qətiyyətli addımların atılmasını şərtləndirir».

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətində elektron xidmətlərin mühüm yer tutduğu qeyd olunaraq vurğulanmışdır ki, bunda məqsəd nazirlik əməkdaşları ilə ictimaiyyət arasında münasibətlərin sivil və şəffaf prinsiplər əsasında qurulmasıdır: «Ölkə başçısının elektron xidmətlər göstərilməsi ilə bağlı 23 may 2011-ci il tarixli fərmanına əsasən, nazirlik elektron xidmətlər sahəsində fəaliyyətini gücləndirmiş, internet saytında bu sahə üzrə xüsusi bölmə yaradılmışdır. Hazırda ƏƏSMN tərəfindən 12 elektron xidmət göstərilir ki, bunlardan 8-i inteqrativ, 8-i interaktiv, 4-ü informativ xarakter daşıyır. Məşğulluq, habelə peşə hazırlığı, əlavə təhsil və haqqı ödənilən ictimai işlərə cəlb olunmaq üçün müraciət və sənədlərin qəbulu; peşə seçimi ilə əlaqədar onlayn testləşdirmə; məşğulluq orqanları vasitəsilə iş axtarışı; işəgötürənlərin hesabatlarının onlayn təqdim edilməsi; işsizlik müavinətinin məbləğinin hesablanması kalkulyatoru; işsizlik statusunun verilməsi və müavinətinin təyin edilməsi üçün müraciət və sənədlərin qəbulu; istehsalatda baş verən bədbəxt hadisə barədə aidiyyəti dövlət strukturuna məlumatların verilməsi; ünvanlı sosial yardım verilməsi üçün müraciət və sənədlərin qəbulu; əlilliyin müəyyən edilməsi, tibbi-sosial reabilitasiyanın həyata keçirilməsi, protez-ortopedik vasitələr barədə məlumatların və reabilitasiya vasitələrinin təminatı üçün müraciət və sənədlərin qəbulu; Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlmələrində vasitəçilik fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) verilməsi üçün müraciətin və sənədlərin qəbulu; istehsalatda baş verən bədbəxt hadisə barədə aidiyyəti dövlət strukturuna məlumatların verilməsi; tibbi sosial ekspertiza üzrə axtarış və digər elektron xidmətlər vətəndaşlarda böyük maraq doğurur».

**Elbrus CƏFƏRLİ,**
**Samir MUSTAFAYEV**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

## Mühasibat və vergi uçotunun fərqli xüsusiyyətləri

### *Müvəqqəti və daimi fərqlər*

**Əvvəli ötən sayımızda**

Hörmətli oxucular, aşağıda göstərilən izahlar daimi fərqlər haqqında ilkin bilgilərin əldə edilməsi məqsədi daşıyır və ona görə də göstərilən misallar sadə xarakterizə olunub. Daimi fərqlərlə bağlı misallar üzərində izahlarımızı davam etdirək:

***Misal 1.***

Hesabat ilinin yekunlarına görə, mənfəət vergisinin ödəyicisi olan müəssisənin mühasibat uçotunda ümumi gəlirləri 100.000 manat, ümumi xərcləri isə 80.000 manat olmaqla 20.000 manat uçot mənfəəti hesablanmışdır. Lakin xərclərin tərkibində müəssisənin uçot siyasətinə uyğun olaraq milli bayram tədbirlərinin təşkil edilməsi məqsədilə 2.000 manat vəsaitin xərclənməsi göstərilib. Həmin vəsait birbaşa restoran xidmətləri göstərən şəxsə müəssisənin kassasından nağd ödənilmiş və restoran tərəfindən göstərilən xidmətlərlə əlaqədar müəssisənin adına ödəniş qəbzi (çeki) və xidmətlərin göstərilməsi barədə akt tərtib olunaraq təsdiqlənməklə müəssisəyə təqdim edilmişdir.

Bu xərc nəinki vergi tutulan gəlirin əldə edilməsi ilə bağlı xərc deyil, hətta bu xərcin ümumi qaydada mühasibat uçotunda qəbul edilən hər hansı gəlirin yaranması ilə bağlılığı yoxdur. Lakin bu xərc Vergi Məcəlləsinin 109.3-cü maddəsinin tələbi nəzərə alınaraq vergi tutulan mənfəətin hesablanmasındakı xərclərə aid edilməyəcəkdir. Mühasibat uçotunda isə bu xərcin ümumi qaydada uçot mənfəətinin hesablanmasında nəzərə alınan ümumi xərclərin tərkibində administrativ və ya sair əməliyyat xərcləri kimi qəbul edilməsinə yol verilir.

Belə olan halda vergi uçotunda hesablanan 22.000 (100.000 - 78.000) manat mənfəətin məbləği mühasibat uçotunda hesablanan 20.000 (100.000 - 80.000) uçot mənfəətindən 2.000 manat çox olacaqdır və bu fərq heç vaxt bərpa olunmayacağına görə daimi fərq kimi qalacaqdır.

***Misal 2.***

Hesabat ilinin yekunlarına görə, mənfəət vergisinin ödəyicisi olan müəssisənin mühasibat uçotunda ümumi gəlirləri 100.000 manat, ümumi xərcləri isə 80.000 manat olmaqla 20.000 manat uçot mənfəəti hesablanmışdır. Ümumi xərclərin tərkibinə o cümlədən müəssisədə aparılan vergi yoxlaması nəticəsində əlavə aşkar edilərək yayındırılmış 1.000 manat əmlak vergisi, 800 manat əməkhaqqıdan tutulan gəlir vergisi və bu vergilərə 50% həcmində tətbiq olunan 900 manat maliyyə sanksiyası, həmçinin malsatana olan kreditor borcunun ödənilməsini gecikdirdiyinə görə malsatana hesablanaraq ödənilmiş 1.300 manat cərimə pulu aiddir. Qalan 76.000 manat xərclər vergi məqsədlərinə uyğun gəlir. Belə halda uçot mənfəəti ilə vergi mənfəəti arasında daimi fərq aşağıdakı kimi olacaqdır (bax: Cədvəl 1):

Cədvəl 1

| № | Göstəricilər | Mühasibat uçotu məqsədləri üçün hesablanan dəyər | Vergi uçotu məqsədləri üçün hesablanan dəyər | Daimi fərqin dəyəri |
|---|---|---|---|---|
| 1 | I. Cəmi gəlirlər | 100000 | 100000 | 0 |
| | Digər xərclər | 76000 | 76000 | 0 |
| | Yayındırılmış əmlak vergisi | 1000 | 1000 | 0 |
| | Yayındırılmış Ö.M.V. | 800 | 0 | +800 |
| | Maliyyə sanksiyası | 900 | 0 | +900 |
| | Malsatana ödənilən cərimə | 1300 | 1300 | 0 |
| 2 | II . Cəmi xərclər | 80000 | 78300 | +1700 |
| 3 | III. Hesablanan mənfəət | 20000 | 21700 | -1700 |

Cədvəldəki bəzi məqamlara diqqət yetirək. Vergi yoxlaması zamanı hesablanmış 1.000 manat əlavə əmlak vergisi yayındırılmış və ya azaldılmış vergilər olsa da, gəlirdən çıxılan vergi (VM, maddə 201.6) olduğuna görə bu vergi hesabat dövründə vergi mənfəətinin hesablanmasında gəlirdən çıxılan xərclərə aid edilmişdir.

Vergi yoxlama zamanı hesablanmış 800 manat əlavə muzdlu işlə əlaqədar ödəmə mənbəyindən tutulan gəlir vergisi də yayındırılmış və ya azaldılmış vergilərdir, lakin bu vergi müəssisə tərəfindən vergi agenti olaraq fiziki şəxsin gəlirindən ödəmə mənbəyində tutulmalı olduğuna görə (VM, maddə 101.1) vergi ödəyicisinin (müəssisənin) xərci kimi qəbul edilməmiş və vergi mənfəətinin hesablanmasında gəlirdən çıxılan xərclərə aid edilməmişdir.

Gəlirdən çıxılan vergilərin və cərimələrin məhdudlaşdırılmasında gəlirin əldə edilməsi ilə bağlı mülki hüquq müqavilələr üzrə faizlər, dəbbə pulu (cərimə), icranın gecikdirilməsi ilə əlaqədar vurulmuş zərərin əvəzinin ödənilməsi və digər analoji cərimələr istisna təşkil etdiyinə (VM, maddə 119.1.2) görə 1.300 manat malsatanlara ödənilən cərimə pulu vergi mənfəətinin hesablanmasında xərclərə aid edilmişdir.

**Ardı növbəti sayımızda**

# Gəliri olmayan müəssisənin cari məcburi xərclərinin təsisçilər tərəfindən ödənilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

*Əvvəli ötən sayımızda*

Qeyd edildi ki, ehtiyac yarandığı halda müəssisənin cari xərclərinin ödənilməsi üçün təsisçi fiziki şəxsdən və ya hüquqi şəxsdən pulun borc verilməsi haqqında bağlanılan borc müqaviləsi çərçivəsində borc alına və ya pulun əvəzsiz verilməsi haqqında bağlanılan əvəzsiz müqavilə çərçivəsində yardım alına bilər.

Təsisçi fiziki şəxsdən və ya hüquqi şəxsdən (hüquqi şəxsin nümayəndəsindən) borc alınan pulun kiçik sahibkarlıq subyektləri hesab edilən müəssisənin pul hesablarına nağd daxil olması və oradan da istifadə edilməsi ilə bağlı mühasibat uçotunda aşağıdakı ikili yazılışların verilməsi məsləhət görülür *(bax: Cədvəl 1)*.

Təsisçi fiziki şəxsdən və ya hüquqi şəxsdən (hüquqi şəxsin nümayəndəsindən) əvəzsiz alınan yardım pulun kiçik sahibkarlıq subyektləri hesab edilən müəssisənin pul hesablarına nağd daxil olması və oradan da istifadə edilməsi ilə bağlı mühasibat uçotunda aşağıdakı ikili yazılışların verilməsi məsləhət görülür *(bax: Cədvəl 2)*.

Cədvəllərdə göstərilən hər bir əməliyyatı təsdiq edən qanunvericiliyin tələblərinə uyğun tərtib olunmuş sənədlər olmalıdır. Bir daha tövsiyə olunur ki, göstərilən əməliyyatları təsdiq edən sənədlərdə (müqavilədə, kassa mədaxil orderində, bank mədaxil qəbzində) «təsisçi» sözündən istifadə olunmasın və bu sözün əvəzində «fiziki şəxs» ifadəsi işlədilsin. Çünki pulu verən «təsisçi şəxs» bu əməliyyatlarda «borc verən fiziki və ya hüquqi şəxs»dir və ya «yardım verən fiziki və ya hüquqi şəxs»dir, yəni şəxsin statusuna uyğun əməliyyatın xarakteri müəyyənləşir və həmin əməliyyat uyğun hesabda uçota alınır.

Cədvəl 1

| Əməliyyatların məzmunu | Debet | Kredit |
|---|---|---|
| Müəssisənin kassasına fiziki şəxsdən (məsələn, təsisçi hesab edilən fiziki şəxsdən) borc pul daxil olmuşdur (müqavilə üzrə borcun 12 ay ərzində qaytarılması nəzərdə tutulub) | 50 | 94 |
| Müəssisənin bankdakı cari manat hesabına təsisçi hesab edilən hüquqi şəxsdən borc pul daxil olmuşdur (müqavilə üzrə borcun 3 il ərzində qaytarılması nəzərdə tutulub) | 51 | 95 |
| Qısamüddətli borc müqaviləsində nəzərdə tutulduğu halda (borcun alınması kimi hesab edilən əməliyyatlar baş verdikdə) təsisçi fiziki şəxsin özü tərəfindən müəssisənin malsatanlara olan borcunun pul şəklində ödənilməsi | 60 | 94 |
| Müəssisənin kassasına daxil olmuş borc pul kassadan dakommunal xərclərin ödənilməsinə istifadə olunub | 60 | 50 |
| Müəssisənin cari manat hesabına daxil olmuş borc pul həmin hesabdan da torpaq vergisinin ödənilməsinə istifadə olunub | 68 | 51 |
| Müəssisənin kassasına daxil olmuş borc pul kassadan rabitə xərclərinin ödənilməsinə istifadə olunub | 60 | 50 |
| Təsisçi fiziki şəxsdən alınan qısamüddətli borcun bir hissəsi müəssisənin kassasından geri qaytarılmışdır | 94 | 50 |
| Təsisçi hüquqi şəxsdən alınan uzunmüddətli borcun bir hissəsi müəssisənin kassasından geri qaytarılmışdır | 95 | 50 |
| Təsisçi hüquqi şəxsdən alınan uzunmüddətli borcun bir hissəsi müəssisənin cari manat hesabından həmin hüquqi şəxsin bank hesabına köçürülmüşdür | 95 | 51 |
| Təsisçi fiziki şəxsdən alınan qısamüddətli borcun bir hissəsi müəssisənin təhtəlhesab şəxsi tərəfindən həmin təsisçi fiziki şəxsə ödənilmişdir | 94 | 71 |

Cədvəl 2

| Əməliyyatların məzmunu | Debet | Kredit |
|---|---|---|
| Müəssisənin kassasına fiziki şəxsdən (məsələn, təsisçi hesab edilən fiziki şəxsdən) əvəzsiz pul (yardım) daxil olmuşdur | 50 | 80, 87 |
| Müəssisənin bankdakı cari manat hesabına təsisçi hesab edilən hüquqi şəxsdən əvəzsiz pul (yardım) daxil olmuşdur | 51 | 80, 87 |
| Təsisçi fiziki şəxsin özü tərəfindən müəssisəyə yardım edilməsi niyyəti ilə müəssisənin malsatanlara olan borcu pul şəklində ödənilmişdir | 60 | 80,87 |
| Müəssisə sadələşdirilmiş vergi ödəyicisi olduğu halda təsisçilər tərəfindən müəssisənin pul hesablarına daxil olmuş yardım vəsaitlərinə satışdankənar gəlirlər kimi sadələşdirilmiş vergi hesablanır | 80,87 | 68 |
| Müəssisənin kassasına daxil olmuş yardım kassadan da işçilərin əmək haqqının ödənilməsinə istifadə olunub | 70 | 50 |
| Müəssisənin cari manat hesabına daxil olmuş yardım vəsait həmin hesabdan da yol vergisinin ödənilməsinə istifadə olunub | 68 | 51 |
| Alınmış yardım məbləğlərə görə hesablanmış sadələşdirilmiş vergi müəssisənin cari manat hesabından dövlət büdcəsinə ödənilmişdir | 68 | 51 |

## vergi təqvimi

| OKTYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | 1 | 2 | 3 | 4 | 5 | **6** |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | **13** |
| 14 | 15 | 16 | **17** | 18 | 19 | **20** |
| **21** | 22 | 23 | 24 | 25 | 26 | **27** |
| 28 | 29 | 30 | 31 | | | |

**Qeyd:** Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.

**Ödənilən vergi:**

17 oktyabr - «(1)» və «(2)».
21 oktyabr - «(1-1)», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

<u>*Birinci metod:*</u> Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

<u>*İkinci metod:*</u> Cari rübdəki gəlirin məbləği keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurulmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübüdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqda sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür. Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı olan digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

# Hamını əhatə edəcək tibbi sığorta

*Özəl klinikaların birində həkimin qəbuluna düşmək üçün növbəmin çatmasını gözləyirəm. Vaxtı öldürmək üçün növbəsini gözləyən bir xanımla söhbətə başlayıram. Həmsöhbətim müayinəyə daha tez gəlməli olduğunu, lakin maaşını gec aldığı üçün gözləməyə məcbur qaldığını deyir: «Müəssisələrin işçilərini tibbi sığorta ilə sığortalaması çox yaxşıdır, amma biz müəllimlər hələ sığorta olunmuruq. Özümüzün könüllü sığorta olunmağımız üçünsə aylıq gəlirimiz kifayət eləmir. Ümid icbari tibbi sığortaya qalır»...*

Azərbaycanda «Tibbi sığorta haqqında» qanun 1999-cu ildə qəbul olunub. Bu qanunla əhalinin tibbi sığortasının təşkilati, hüquqi və iqtisadi əsasları müəyyən edilir, tibbi sığortanın subyektləri arasındakı münasibətlər tənzimlənir. Qanuna görə, tibbi sığorta sağlamlığın qorunması sahəsində əhalinin sosial müdafiəsi forması olmaqla, sığorta hadisəsi baş verdikdə ölkə əhalisinin tibbi və dərman yardımı almasına təminat verir. Tibbi sığorta icbari və könüllü formada həyata keçirilir. İcbari tibbi sığorta dövlət sosial sığortasının tərkib hissəsi olmaqla, əhalinin icbari tibbi sığorta proqramına müvafiq həcmdə tibbi və dərman yardımı almasını təmin edir. Könüllü tibbi sığorta icbari tibbi sığorta proqramında müəyyənləşdirildiyindən əlavə, müqavilə əsasında başqa imkanlar da yaradır.

***Vətəndaşların hüquqları***

İcbari tibbi sığorta sistemində işləməyən vətəndaşlar üçün müvafiq icra hakimiyyəti orqanları və müvafiq sosial proqramlar çərçivəsində yerli özünüidarə orqanları, işləyən vətəndaşlar üçün mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi şəxslər və qanunvericilikdə müəyyən olunmuş qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər sığorta edilirlər. Könüllü tibbi sığortada sığorta edənlər isə vətəndaşlar və vətəndaşların mənafeyini ifadə edən hüquqi şəxslərdir.

Tibbi sığorta sistemində sığorta olunan vətəndaşların tibbi sığorta şəhadətnaməsini aldığı andan qanunvericilikdə müəyyən olunmuş hüquqlardan istifadə etmək, tibbi sığorta müqaviləsi ilə müəyyən edilən tibbi yardım növlərinə və həcminə uyğun olaraq tibbi sığorta sisteminə daxil olan tibb müəssisələrindən hər hansı birini və həkimi seçmək, tibbi sığorta müqaviləsinə əsasən müraciət etdiyi tibb müəssisəsindən sağlamlığının vəziyyəti, eləcə də tətbiq olunan müalicə metodları və onların nəticələri barədə məlumat almaq, könüllü tibbi sığorta müqaviləsinin şərtlərində müəyyən edilmişdirsə, istifadə edilməyən sığorta haqqının bir hissəsini geri almaq və s. hüquqları var.

***Tibbi sığorta sahəsində mövcud vəziyyət***

İqtisadçı ekspert Azər Mehtiyev tibbi sığorta sisteminin tətbiqində bəzi problemlər olduğunu deyir. Onun fikrincə, hazırda könüllü tibbi sığorta işləsə də, icbari tibbi sığortaya keçid gecikir: yalnız dövlət məmurlarının, hərbiçilərin icbari tibbi sığortası həyata keçirilir. Ölkədə heç də bütün insanlar özlərini könüllü tibbi sığorta ilə sığortalamaq iqtidarında deyillər: «İcbari tibbi sığortanın tətbiqi mexanizmi çox mürəkkəbdir. Qısa müddət ərzində hamını qane edə biləcək mexanizmin olması mümkün deyil. İcbari tibbi sığortanın üstünlüyü ondadır ki, insanlar vaxtında həkimlərə müraciət edəcəklər, həm də onların xidmətlərin dəyərinin maliyyə baxımından qorunması həyata keçirilir. Bu ona imkan verir ki, dövlət büdcəsindən ayrılan vəsaitlər daha səmərəli istifadə olunur. İcbari tibbi sığortanın tətbiqi və hamını razı salacaq bir model olması üçün zaman tələb olunur. Buna baxmayaraq, icbari tibbi sığortanın tətbiqinə başlanılmalıdır».

İcbari tibbi sığortaya keçid üçün tibbi müalicə protokolları hazırlanmalı, müəyyən xəstəlik və müayinə növləri üzrə xidmətlər paketinin siyahısı dəqiqləşməlidir.

A.Mehtiyev icbari tibbi sığortanı şəffaflığın artırılması vasitəsi hesab edir: bu zaman müalicə olunan xəstə ilə həkim arasında münasibətlər yeni bir pilləyə keçir. Dövlət və sığorta şirkətləri tərəfindən qarşılıqlı nəzarət mexanizmi qurulur.

**AYTƏN**

beynəlxalq panoram

# Vergi ödəyicilərinin davranışlarına həsr olunan seminar keçirilmişdir

*Gürcüstanın Kvareli şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) təşkilatçılığı ilə vergi ödəyicilərinin davranışlarına və əməletməyə təsir göstərmək üçün görülən tədbirlərin qiymətləndirilməsi mövzusunda seminar keçirilmişdir.*

Seminarda Avstriya, Bosniya və Herseqovina, Bolqarıstan, Estoniya, Finlandiya, Gürcüstan, Almaniya, Macarıstan, İrlandiya, Qazaxıstan, Latviya, Litva, Niderland, Norveç, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, İsveç, İsveçrə, Ukranya təmsilçiləri iştirak etmişdir. Səfər zamanı Gürcüstan, İrlandiya, Portuqaliya, Finlandiya, İsveç, Avstriya, Hollandiya təmsilçiləri bu sahədə təqdimatlarla çıxış etmişdir.

Tədbirin sonunda təqdimatlar və qrupdaxili müzakirələr zamanı mövcud təcrübələr barədə fikir mübadiləsi aparılmışdır. Tədbirdə Vergilər Nazirliyini Xüsusi Rejimli Vergi Xidməti Departamentinin İqtisadi təhlil şöbəsinin əməkdaşı Nicat Mehdiyev təmsil etmişdir.

# "Böyük səkkizlik" dünyada vergi şəffaflığının artırılmasına dəstək verəcək

*«Böyük səkkizlik» ölkələrinin liderləri Şimali İrlandiyanın Lox-Erne şəhərindəki görüşdən sonra dünyada vergi şəffaflığının artırılmasına dəstək verməyə və vergilərə dair informasiyaların avtomatik mübadiləsinə dair milli planları hazırlamağa razılıq veriblər.*

G8 ölkələrinin dərc edilmiş son bəyanatında göstərilən 10 prinsipdən 7-si bilavasitə vergi ödəmələrindən yayınma ilə mübarizəyə həsr edilib. «Böyük səkkizlik» sammitinin yekun bəyannaməsində bildirilir: «Şirkətlərə vergi ödəmələrindən yayınmaq məqsədilə öz gəlirlərini xaricə çıxarmağa imkan yaradan qaydaları dəyişdirmək lazımdır, transmilli korporasiyalar isə vergi orqanlarına vergilərin ödənilməsi yerləri və məbləğləri barədə hesabat verməlidir. Şirkətlər bilməlidir ki, onların real sahibləri kimlərdir, hüquq-mühafizə orqanları isə bu informasiyalara asan giriş əldə etməlidirlər».

«Böyük səkkizlik» ölkələri vergi orqanlarının arasında informasiyaların avtomatik mübadiləsinə zərurət olduğunu qəbul ediblər. «Səkkizliy»in yekun sənədində inkişaf etməkdə olan ölkələrdə vergilərin yığılması problemlərinə xüsusi diqqət ayırılıb. «İnkişaf etməkdə olan ölkələr vergilərin yığılması üçün lazımi informasiyaya malik olmalıdır, digər dövlətlər isə onlara müvafiq köməyi göstərməlidirlər», - bəyannamədə qeyd olunub.

Sənəddə, həmçinin, hasilat şirkətlərinə yerli hökumətlərə apardıqları ödənişlər barədə, hökumətlərə isə, öz növbəsində, şirkətlərdən alınmış gəlirlər barədə informasiyaları dərc etməyə dair tövsiyələr əksini tapıb.

«Səkkizlik» ölkələrinin çağırışları sırasında mənbədə vergilərin yığılması məsələsi də əksini tapıb. Korporasiyaların gəlirin alındığı ölkə üzrə ayrı-ayrılıqda vergitutmaya cəlb edilməsi, həmçinin şirkətlərin xərcləri vergilərin yüksək olduğu yurisdiksiyalara, gəlirləri isə ofşorlara yönəltməsinin qarşısını almaq üçün pul vəsaitlərinin ölkədaxili hərəkətinə nəzarətin gücləndirilməsi tələb olunur.

«Böyük səkkizlik» korporasiyaları sahibkarlar və benefisiarlar haqqında düzgün informasiya təqdim etməyə, dövlət tənzimləyicilərini isə, öz növbəsində, monitorinq həyata keçirməyə və zərurət olduğu halda sanksiyalar tətbiq etməyə məcbur etmək istəyir. Bu, həmçinin müxtəlif vasitəçi şirkətlərin etibarlı şəxslərinə də aiddir. Onlar da tənzimləyicilər qarşısında gəlirlərin faktiki sahibləri və təsisçiləri haqqında hesabat verməlidirlər.

Maliyyə tənzimləyicilərinin diqqəti və avtomatik məlumat mübadiləsi sistemi yalnız fiziki şəxslərin dividend və faiz gəlirlərinə deyil, həm də müvəqqəti yaradılmış şirkətlərin, trastların və başqa strukturların şəbəkəsinə də yönəldiləcək. Çünki belə subyektlər yalnız gəlirləri deyil, eləcə də aktivləri gizlətməyə imkan verir.

Uzunmüddətli perspektivdə «gəlirlərin gizlədilməsinə imkan yaradan» bir sıra səhm növləri, həmçinin nominal sahiblər və nominal direktorlar maliyyə dövriyyəsindən yox olmalıdır. Dünya ölkələrində maliyyə əməliyyatlarına nəzarəti asanlaşdırmaq üçün vahid mərkəzi qeydiyyat sistemindən istifadə edilməsi təklif edilir.

G8 - Böyük Britaniya, Almaniya, İtaliya, Kanada, Rusiya, ABŞ, Fransa və Yaponiya hökumətlərini birləşdirən beynəlxalq klubdur.

# Böyük Britaniyada şübhəli əcnəbilər üçün vergi tətbiq ediləcək



Hökumət «mühacirət qanunvericiliyinin pozulması riski yüksək olan» əcnəbilərdən girov almaq niyyətindədir. Britaniya vizası alan əcnəbilərdən girovun alınması proqramı 2013-cü ilin noyabrından test rejimində çalışacaq. Proqramın əhatə dairəsinə ilk növbədə altı ölkənin sakinləri düşəcək. Bunlar Hindistan, Pakistan, Nigeriya, Şri-Lanka, Banqladeş və Qana sakinləridir. Yarımillik viza üçün bu ölkələrin vətəndaşları depozit şəklində üç min funt sterlinq girov qoymalı olacaqlar. Əgər onlar viza müddəti qurtardıqdan sonra Böyük Britaniyanı tərk etməzlərsə, girov vəsaitlər dövlətin hesabına yönəldiləcək.

Böyük Britaniyanın daxili işlər naziri Tereza Meyin təşəbbüsü ilə hazırlanmış proqram Devid Kemeron hökumətinin immiqrasiyanın azaldılması istiqamətində səylərini nümayiş etdirməlidir. Baş nazir D.Kemeron 2015-ci ilə kimi miqrantların axınını 100 minə qədər azaldacağını vəd edib.

2012-ci ildə yarımillik Britaniya vizaları 296 min Hindistan, 101 min Nigeriya, həmçinin 53 min Pakistan sakininə verilib. Şri-Lanka və Banqladeş vətəndaşları orta hesabla 14 min viza alıblar.

# Fransa "Qara siyahı" mexanizmindən istifadə edəcək

Vergidən yayınma ilə mübarizə tədbirləri çərçivəsində rəsmi Paris ilə əməkdaşlıqdan imtina edən yurisdiksiyalara münasibətdə «Qara siyahı» mexanizmindən istifadə etmək gündəliyə gətirilmişdir. Fransa hökuməti bildirib ki, 2015-ci ilə qədər onunla vergi sahəsində avtomatik informasiya mübadiləsinə dair saziş bağlamayacaq ölkələr «ofşorların qara siyahısı»na salınacaq. Hazırda belə namizəd ölkələrin siyahısına Lüksemburq və İsveçrə düşmək ərəfəsindədir. «Qara siyahı»nın hazırlanması Fransa Respublikasının Vergi Məcəlləsinin 238-ci maddəsində nəzərdə tutulub.

Artıq bir sıra ölkələr əməkdaşlığa maraq göstərirlər. İsveçrə Federal Şurası bildirib ki, İƏİT-in hazırladığı qlobal standartlara dair qərarlar üzərindən fəal əməkdaşlıq etməyə hazırdır. İsveçrə hökuməti bildirib ki, əgər bu standartlar G20 və bütün əsas beynəlxalq maliyyə mərkəzləri tərəfindən tətbiq edilərsə, o zaman müvafiq mexanizmlər İsveçrə hüquq qanunvericiliyinə də daxil ediləcək.

Lüksemburqa gəlincə, bu ölkə «Əmanətlər üzrə gəlirlərin vergiyə cəlb edilməsi haqqında» Avropa Birliyinin təlimatına əsasən avtomatik informasiya mübadiləsini 2015-ci ilin yanvarından aparmaq niyyətindədir.

Fransa qanunvericiliyinə əsasən, əgər şirkətin törəmə müəssisəsinin qeydiyyatı və ya faktiki fəaliyyət göstərdiyi ərazi ofşor zonaların siyahısındadırsa, o zaman Fransada yerləşən ana şirkət xüsusi vergi rejimindən istifadə edə bilməz. Qanunvericiliyə əsasən, xüsusi vergi rejimində törəmə müəssisənin ana şirkətin xeyrinə dividendlər formasında ödəmələrinin 95%-i korporativ vergidən azad edilə bilər. Bundan başqa, vergilər və yığımlar haqqında qanunvericiliyə əsasən, Fransa ilə əməkdaşlıq etməyən ölkələrə dividend, faiz və royalti ödənişləri mənbədə 55%-lik vergiyə cəlb edilir.

# Alman müəssisələri milyardlarla avro həcmində vergiləri gizlədir



Həmişə qanunlara tam riayət etdiyi güman edilən, intizamın simvolu sayılan bir çox alman müəssisələrinin, əslində, öz gəlirlərinin bir hissəsini ölkə xaricinə çıxarmaqla və ya mənfəəti bilərəkdən azaltmaqla vergi orqanlarından milyardlarla avro gizlətdiyi məlum olub. Bu, Almaniyanın İqtisadi Tədqiqatlar İnstitutunun apardığı araşdırmalar nəticəsində bəlli olub.

İnstitutun nümayəndəsi Ştefana Baxın sözlərinə görə, «2001-2008-ci illər arasında alman müəssisələri korporativ vergi dərəcəsinin real olaraq yalnız 21%-ni ödəyiblər, hərçənd həmin dövrdə Almaniyada korporativ vergi 38 faiz təşkil edirdi (sonradan bu dərəcə 30%-ə qədər aşağı salınıb)».

İnstitutun ekspertləri hesablayıblar ki, yalnız 2008-ci ildə şirkətlərin gəlirləri və vergi ödəmək üçün əsas götürdükləri gəlir bazası arasındakı fərq 92 milyard avroya çatır.

krossvord



**Soldan sağa:**

1.Qonşu ölkə; 4.Gələcəyi xəbər verən; 8.Hər hansı bir xidmətdən istifadə edən fiziki və ya hüquqi şəxs; 9.Qırğızıstanda inzibati ərazi vahidi; 10.Danışıq qabiliyyətini itirən şəxs; 12.«Bəxtiyar» filmində Qurban obrazını canlandıran aktyorun adı; 13.İsveçrənin paytaxtı; 16.Məclisi aparan; 17.Qazax xalq çalğı aləti; 20.Avtomobil markası; 21.Elektrik yüklənmiş atom və ya molekul; 22.Azərbaycan mətbəxi nümunələrindən biri; 24.Başkortostan Respublikasının paytaxtı; 25.Yazı materialı kimi e.ə. 3-cü minilliyin əvvəllərində qədim Misirdə ixtira olunmuş çoxillik ot bitkisi; 27.«Üç muşketyor»dan biri; 28.Gənclər və idman nazirinin adı.

**Yuxarıdan aşağı:**

2.Azərbaycan teatr və kino sənətinin korifeylərindən biri (adı) (1894-1980); 3.Təsirsiz təkatomlu qaz; 4.U.Şekspirin pyesi; 5.Auditor yoxlamasının son yekun sənədi; 6.Əşyalardan əks olunan səs dalğalarının və ya radiodalğaların qeydə alınması, onların yerinin, forma və ölçülərinin təyin edilməsi cihazı; 7.Fəaliyyətin əvvəlcədən düşünülməsi; 9.Sovet şahmatçısının soyadı. Beynəlxalq qrossmeyster (1952) və arbitr (1969); 11.Braziliyanın şimalında, Para ştatında yaranmış musiqi cərəyanı və rəqsi; 14.Hər tərəfdən su ilə əhatə olunmuş quru torpaq sahəsi; 15.Rəngsiz, boz və ya qırmızı amorf maddə; 18.Tamaşa biletlərinin tam satılması; 19.Fəzada istiqaməti təyin etmək üçün cihaz. XI əsrdə Çin alimi Şen Qua onun bir neçə növünü icad edib; 20.Qarnir və ya əsas yemək üçün duru ədviyyat; 23.Taxıl növü; 25.Şahmatda heç-heçə; 26.Qədim Misir mifologiyasında ağıl və müdriklik ilahəsi.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:**

1.Qahirə; 2.Ləcət; 3.Taranto; 4.Kol *(Helmut)*; 5.Qamış; 6.Tizonit; 7.Benzol; 11.Linux; 13.Hopkins *(Entoni)*; 15.Qarayev *(Qara)*; 16.Kriket; 17.Lakşmi; 18.İveco; 20.Zombi; 22.Som.

**Soldan sağa:**

1.Qalstuk; 5.Qutab; 8.Həcər; 9.Limuzin; 10.Retinol; 12.Bill *(Geyts)*; 14.Oynaq; 16.Klon; 19.Xarizma; 21.Klirens; 23.Yemiş; 24.Tüsso; 25.Mavriki.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.

Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

# "Tour of Anapa" yarışı başa çatıb

*U17 və U15 yaş kateqoriyası üzrə Azərbaycanın velosiped üzrə milli yığma komandası «Tour of Anapa» yarışında iştirak etmişdir. U17 yaş kateqoriyası üzrə milli komandamız Kənan Qəhrəmanlı, Nicat Qarayev və Tərlan Məmmədovla təmsil olunmuşdur.*

Üçüncü mərhələdə idmançılarımız 78 km məsafə qət etməli olmuşlar. Komandamızın velosipedçisi Kənan Qəhrəmanlı üçüncü mərhələni 19-cu yerdə tamamlamışdır. Digər idmançı Nicat Qarayev finişə 26-cı olaraq gələ bilmişdir.

U15 yaş kateqoriyası üzrə ölkəmizi təmsil edən Bakir Dadaşov 48 km məsafəni qət edərək 80 idmançı arasında 13-cü olmuşdur.



# İdmançılarımız stolüstü tennis üzrə Avropa çempionatında iştirak edəcək

*Oktyabrın 4-dən 13-dək Avstriyanın Şvexat şəhərində stolüstü tennis üzrə Avropa çempionatı keçiriləcəkdir. Çempionatda Azərbaycanı altı idmançı təmsil edəcəkdir. Belə ki, kişilər arasında yarışlarda Rüstəm Əliyev, Sənan Əliyev və Hilal Həsənov mübarizə aparacaqlar. Qadınların turnirində isə Səbinə Əhmədova, Rüfət Quliyeva və Məryəm İmanova iştirak edəcəklər.*

# Sərbəst güləşçilərimiz Dmitri Korkinin xatirə turnirində iştirak edəcək

*Oktyabrın 5-6-da Saxa Respublikasının Yakutsk şəhərində Rusiya Federasiyası və Saxa Respublikasının əməkdar məşqçisi Dmitri Korkinin xatirəsinə həsr olunmuş güləş üzrə altıncı beynəlxalq turnir keçiriləcək. Azərbaycan Güləş Federasiyasından AzərTAc-a bildirmişlər ki, turnirdə sərbəst güləş üzrə yığma komandamızın üç üzvü iştirak edəcək.*



Məşqçi Nazim Əlicanovun rəhbərliyi altında turnirə Namiq Sevdimzadə (55 kq), Qalib Əliyev (60 kq) və İbrahim Usubov (84 kq) qatılacaq. Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Rövşən Azadov təmsil edəcəkdir. Turnirin proqramına əsasən, oktyabrın 5-də 55, 66, 84 və 120 kiloqram, oktyabrın 6-da isə 60, 74 və 96 kiloqram çəki dərəcəsində pəhləvanlar qüvvələrini sınayacaqlar.

# Taekvondo üzrə yığma komandamız gənclər arasında XIX Avropa birinciliyində beş medal qazanmışdır

*Portuqaliyanın Portu şəhərində taekvondo üzrə gənclər arasında XIX Avropa birinciliyi başa çatmışdır. Azərbaycan Taekvondo Federasiyasından bildirmişlər ki, Azərbaycanın gənclərdən ibarət yığma komandası - baş məşqçi Məmməd Abdullayev və böyük məşqçi Zahid Məmmədovun başçılığı altında 13 idmançı birincilikdə iştirak etmişdir.*

İdmançılarımız yarışdan bir qızıl, bir gümüş və üç bürünc medalla vətənə dönmüşlər.

Komanda üzvlərindən Məhəmməd Məmmədov (55 kq) qızıl, Ayxan Tağızadə (63 kq) gümüş, Tapdıq Ələkbərov (68 kq),Yusif Hüseynli (59 kq) və Elnur Məhərrəmov (78 kq) isə bürünc medala layiq görülmüşlər.

mozaika

texnologiya

# "Facebook" istifadəçilərinə yeni imkan və xəbərdarlıq

*Bu sosial şəbəkədə istifadəçilərə yazdıqları status qeydlərini redaktə etmək imkanı yaradılıb. Əvvəllər istifadəçilər yalnız öz şərhlərini redaktə edə bilirdilər. Statusu isə ya tamamilə silmək, ya da gizlətmək olardı. Bundan sonra «Facebook» istifadəçiləri statuslarını da istədikləri anda redaktə edə biləcəklər.*

Lakin istifadəçilərə bu imkanın yaradılması ilə müəyyən problemlərin də orataya çıxacağı istisna edilmir. Ekspertlər xəbərdarlıq edirlər ki, yeni funksiya bəzi müəlliflərin qeydlərini arxa tarixə dəyişərək oxucularını aldada və pis vəziyyətə qoya bilər. BBC-nin şərhinə görə, əvvəllər statuslarında hansısa dəyişikliklər etmək üçün istifadəçi onu pozmalı və yenidən yazmalı idi. Bu zaman bütün «like» - «bəyənirəm» və şərhlər itirdi. İndi tətbiq olunan imkanlar nəticəsində isə istifadəçilər yazdıqları statusları, şəkillərə aid qeydləri redaktə edə bilirlər. Yəni indi onları silməyə ehtiyac yoxdur.

Uyğunsuzluq bundadır ki, redaktədən sonra həmin statusu bəyənmiş, yaxud altından şərh yazmış istifadəçi xəbərdarlıq almır. Məsələn, hər hansı statusu bəyənmiş istifadəçi sonradan öz adını tamamilə başqa, arzuolunmaz statusun altında aşkarlaya bilər. Hər halda, ehtiyatlı olmaq lazım gələcək.

maraqlı

# Çeynəndikcə...

*Müdrik bir kəlam var: «Söz də saqqız kimidir - çeynəndikcə çürüyür». İnsanlar saqqızın kəşfinə qədər yeməkdən sonra ağızlarını təmizləmək, nəfəslərini təravətləndirmək üçün nələr çeynəməyiblər: saqqız ağacının qətranı, arı mumu, kauçuk, betel istiotu... Üç əsr boyunca Avropa və ABŞ-da tənbəki çeynəyiblər. Bu gün tanıdığımız və sevdiyimiz ilk saqqız isə 1848-ci ildə ABŞ-ın Men ştatında, Banqordakı fabrikdə hazırlanıb. Gələcək bublqamın ilk üç markası romantik adlar daşıyırdı: «Ağ dağ», «Şəkərli qaymaq» və «Biyan Lulu».*

Saqqızın qadınlar arasında populyar olduğunu nəzərə alan Conatan Primli adlı sahibkar 1880-ci illərdə «Kiss me!» («Öp məni!») adlı marka yaratmışdı. 1911-ci ildə, aviasiyanın ilkin vaxtlarında saqqız Birləşmiş Krallığın Hərbi Hava Qüvvələrinin cəsur əsgərlərinin həyatını xilas etmişdi. Qorxmaz britaniyalılar saqqızla mühərrikin soyuducu sistemindəki dəlikləri qapayıb, uğurlu eniş edə bilmişdilər.



Saqqız istehsal edən «Wrigley» adlı məşhur şirkət 1915-ci ildən başlayaraq aqressiv reklam kampaniyası həyata keçirərək Nyu-Yorka gələn immiqrantların hərəsinə bir saqqız paylamış, bundan sonra saqqız amerikan həyat tərzinin simvoluna çevrilmişdi.

Köpürdülərək qabaran müasir saqqızlar 1928-ci ildə istehsal olunmağa başlayıb. Bu saqqız formulunun müəllifi Uolter Dimer adlı mühasib idi. Saqqız SSRİ-də ilk dəfə 1957-ci ildə, gənclərin və tələbələrin VI ümumdünya festivalı zamanı qeyri-leqal şəkildə yayılmağa başlayır. «Sülh, dostluq, saqqız!» adlı yarıironik şüar da o dövrlərdə yayılmağa başlayır. 1970-ci illərdə SSRİ-yə saqqız daha çox Moskva və liman şəhərlərindən yayılır.

Fantiklər (rəngli konfet kağızı), xüsusilə saqqızın içindəki kağızlar kolleksionerlərin marağını cəlb edir, daha çox uşaqlar onu toplamağa, onunla cürbəcür oyunlar oynamağa başlayırlar. SSRİ-yə gələn əcnəbilər uşaqlara paylamaq üçün özləri ilə çoxlu bublqam gətirirlər.

Əcnəbilərin bu səxavəti faciə ilə nəticələnir. 1975-ci ilin mart ayında «Sokolniki» idman sarayında SSRİ və Kanadanın yeniyetmələrdən ibarət xokkey komandalarının görüşü zamanı əcnəbilər saqqız payladıqları zaman basırıq yaranır və nəticədə 21 nəfər həlak olur...

Ph balansının normallaşması, kariesdən müdafiə, dişlərin sağlamlığı kimi reklam vədlərinin, əslində, reallıqla heç bir əlaqəsi yoxdur. Ancaq dəniz xəstəliyi-gəmi tutması, təyyarədə səyahət və mədədə qıcqırma zamanı qısamüddətli köməyi dəyir. Qamfitti - saqqızın xüsusən şəhərlərdə ətraf mühitə vurduğu zərər belə adlanır. Təəssüf ki, istifadə olunmuş saqqızın zərərsiz utilizasiya yolu hələ kəşf olunmayıb.

dəyərlərimiz

# Milli Kitabxananın 90 illik yubileyi qeyd edilmişdir

*Sentyabrın 25-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbiri mədəniyyət və turizm naziri Əbülfəs Qarayev açmışdır.*



Baş nazirin müavini, xalq yazıçısı Elçin Əfəndiyev öz çıxışında Milli Kitabxananın tarixinə nəzər salmış, görülmüş işlər, əldə olunmuş uğurlar barədə danışmışdır. Hazırda Milli Kitabxanada 25 şöbə, 26 bölmə fəaliyyət göstərir və kitabxananın fondunda 5 milyondan çox çap məhsulu saxlanılır. Kitabxananın 37 min daimi, 500 mindən çox virtual oxucusu var.

Milli Kitabxananın direktoru Kərim Tahirov isə «Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında» ölkə başçısının 2013-cü il 24 iyun tarixli sərəncamını kitabxana işinə verilən yüksək qiymət hesab etdiyini bildirmişdir. Tədbirdə həmçinin Avropa Milli Kitabxanaları Konfransının prezidenti, Fransa Milli Kitabxanasının rəhbəri Bruno Rasine və Avrasiya Kitabxanalar Assambleyasının prezidenti, Rusiya Dövlət Kitabxanasının baş direktoru Aleksandr Vislı çıxış edərək yubiley münasibətilə Milli Kitabxana işçilərini təbrik etmişdir. Tədbir konsert proqramı ilə davam etmişdir.

***Azərbaycan Milli Kitabxanası*** Xalq Maarif Komissarlığının 13 noyabr 1920-ci il tarixli 53 nömrəli qərarına əsasən yaradılmış, rəsmi açılışı isə 1923-cü il may ayının 23-də olmuşdur. 1939-cu ildə kitabxanaya böyük mütəfəkkir, dramaturq və maarifçi Mirzə Fətəli Axundovun adı verilmişdir. Kitabxananın memarlıq baxımından tarixi abidə kimi qiymətləndirilən binası 1959-cu ildə tikilmiş, açılışı isə 1961-ci ildə olmuşdur. Binanın layihəsi Mikayıl Useynova məxsusdur. Binanın yerinin seçilməsində və tikilməsində yazıçı Süleyman Rəhimovun böyük xidməti olmuşdur. Azərbaycanın ən böyük kitabxanası olaraq Qafqazda və Avropada ən böyük milli kitabxanalardan biridir. Kitabxananın fondlarında saxlanılan nəşrlərin sayı 5 milyon ədəddən artıqdır.

2004-cü ildə kitabxanaya Nazirlər Kabinetinin qərarı ilə «Milli Kitabxana» statusu verilmişdir.

2005-ci ildə Milli Kitabxanamız Avropa Milli Kitabxanalar Konfransı Beynəlxalq Təşkilatına üzvlüyə qəbul edildi. Keçmiş SSRİ ölkələri arasında Rusiyadan sonra bu təşkilata üzv olan ikinci dövlət Azərbaycan oldu.

**Müdriklər deyib ki...**

***"Qaranlıq gecələr olmasaydı, gözləri oxşayan ulduzlar bunca sevilməzdi".***

**Hüseyn Cavid (1882-1941)**

